HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 49-52 (946) ■ 27 dekabr 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycan dövləti daim öz vətəndaşlarının yanındadır

**Dekabrın 24-də Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.**




Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına bu ilin martında başlanılıb və tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib.

Dövlətimizin başçısına məlumat verilib ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olublar. Qeyd edilib ki, buradakı mənzillərdən 77-si birotaqlı, 420-si ikiotaqlı, 406-sı üçotaqlı, 96-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 76 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayon ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaq. Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksindəki uşaq bağçası və Qubadlı rayonu Mirağa Əliyev adına Hal kənd tam orta məktəbindəki şəraitlə də tanış olublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşüblər. Dövlətimizin başçısı yeni şəhərciyin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək bildirib ki, Azərbaycan dövləti öz ata-baba yurdlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin həlli istiqamətində bütün addımları atır və bu proses bundan sonra da davam edəcək: «Son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılmışdır. Üç yüz minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib. Bu məqsədlər üçün dövlət çox böyük vəsait xərcləyib və bu da təbiidir. Çünki mən həmişə demişəm ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır. Bu il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və istifadəyə verilib. Artıq köçkünlərin bu evlərə, mənzillərə yerləşməsi prosesinə start verilmişdir. Bu, rekord göstəricidir. Biz hər il minlərlə köçkün ailəsini yeni evlərlə, mənzillərlə təmin edirik. Bir daha demək istəyirəm ki, bu il bu, ən yüksək səviyyədə öz həllini tapıb. Bizim vəzifəmiz ondan ibarətdir ki, bütün köçkün ailələri normal şəraitlə təmin olunsunlar. Bu istiqamətdə böyük işlər görülür, həm Bakı şəhərində, Abşeron rayonunda, Sumqayıt şəhərində, həm də digər şəhər və rayonlarımızda. Son illərdə yüzdən çox köçkün şəhərciyi tikilib istifadəyə verilmişdir. Ancaq o da həqiqətdir ki, hələ də çətin vəziyyətdə yaşayan köçkünlərimiz var. Onların problemləri də öz həllini tapacaq. Hazırda Dövlətqaçqınkom bu istiqamətdə öz işini davam etdirir, siyahılar dəqiqləşdirilir və növbəti ildə görüləcək işlərlə bağlı indi hazırlıq tədbirləri aparılır. Gələn il dövlət xərclərimizdə köçkünlərin problemlərinin həlli üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub».

Dövlətimizin başçısı əminliklə bildirib ki, bu gün hələ də işğal altında olan bütün torpaqlar azad ediləndən sonra o torpaqlarda gözəl şəhərlər, kəndlər yenidən qurulacaq. Azərbaycan xalqı işğalla barışmayacaq: «Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr bunu göstərir. Ermənistanda uzun illər ərzində - iyirmi il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız var. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ilk növbədə, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq».

Sonra yeni mənzillə təmin olunmuş soydaşlarımız göstərilən diqqətə görə minnətdarlıqlarını bildirməklə yanaşı, Prezident İlham Əliyevi ad günü münasibətilə səmimi qəlbdən təbrik ediblər, dövlətimizin daha da inkişafı naminə fəaliyyətində uğurlar arzulayıblar.

# Prezident İlham Əliyevin dünya azərbaycanlılarına təbriki

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının «Doing Business 2019» hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan «Cənub Qaz Dəhlizi»nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində «Şimal-Cənub» beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki «Azerspace-2»nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 25 dekabr 2018-ci il.

# Rəsmi xronika

- Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ad gününü qeyd edib. Bu münasibətlə dünyanın bir sıra dövlət başçıları Azərbaycan Prezidentinə təbrik teleqramları ünvanlayıb, telefonla zəng ediblər. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş naziri Mamuka Baxtadze, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç və digər dövlət və hökumət başçıları Azərbaycan Prezidentini səmimi təbrik ediblər, ona Azərbaycan xalqının firavanlığı və tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıblar.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçi qəbul edib. Söhbət zamanı ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyi bildirilib, iqtisadi sahədə əməkdaşlığın yüksəlməsi istiqamətində səmərəli işlərin həyata keçirildiyi qeyd olunub, əməkdaşlığımızın bütün sahələrdə, o cümlədən infrastruktur, kənd təsərrüfatı, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində dinamik şəkildə inkişaf etdiyi vurğulanıb.
- Dekabrın 25-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısı yeni tədris binasının rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə tanış olub. Daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədris binasında yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verib. Yeni tədris binasındakı kriminalistik təlim şəhərciyindəki müasir şərait müəllimlərə maddi sübutun götürülməsi, ayaq, əl və digər izlər barədə məlumatların toplanması, polis əməkdaşının davranış qaydaları, əməliyyat və xidmət zamanı digər zəruri hərəkətlər haqqında kursantlara əyani surətdə məlumat vermək imkanı yaradır.

# Paytaxt Bakı günü-gündən daha da gözəlləşir

Dekabrın 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Bakı Ağ Şəhər»də 110 kilovoltluq «Ağ Şəhər-2» və «Bakıxanov» yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də «Ağ Şəhər» piyada körpüsünün və «Zaman» meydanının təməlqoyma mərasimində iştirak ediblər, tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə tanış olublar.

Dövlətimizin başçısı əvvəlcə məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə «Ağ Şəhər-2» yarımstansiyasını və 110/35/10 kilovoltluq «Bakıxanov» yarımstansiyasını işə salıb. Sonra Birinci Fəvvarələr küçəsinin açılışı olub. Prezident İlham Əliyev yeni küçənin rəmzi açılışını bildirən lenti kəsib. Daha sonra dövlətimizin başçısı və birinci xanım tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə də tanış olublar. Təməli 2016-cı ilin dekabr ayında qoyulmuş bu park piyada keçidi və 800 yerlik ictimai parkinq kompleksinin bir hissəsidir. Tikintisi əsasən başa çatmış Fəvvarələr Meydanı kvartalının mərkəzində yerləşən parkda geniş istirahət zonaları, üç fəvvarə kompleksi, uşaqların təhlükəsiz əyləncəsi üçün geniş meydança, gözəl landşaft dizaynı mövcuddur. «Bakı Ağ Şəhər»in hər bir guşəsində olduğu kimi, burada da klassika, müasirlik və qarışıq üslub, müxtəlif nou-haular, hayteklər, tikinti materiallarının incə zövqlə seçimi, özünəməxsus memarlıq elementləri, ritmiklik, zəriflik, funksionallıq, konstruktivlik, elmi-texniki yeniliklərin tətbiqi, hər addımda nəfis ideyalar və bir-birindən üstün çalarların yer alması özünü qabarıq göstərir. Parkın bəzi hissələri «Qara Şəhər»in keçmiş tikililərindən qalma daşlarla döşənib. Parkda «Ağ Şəhər» layihəsi və ərazinin tarixi olan «Qara Şəhər» haqda məlumatlandırıcı lövhələr, küçə saatı, termometr, xatirə medalyonu quraşdırılıb. Burada 2018-ci ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş «Daşın nəğməsi» üçüncü Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində təqdim edilmiş heykəl qoyulub.

Sonra dövlətimizin başçısına ötən illərdə «Ağ Şəhər»də həyata keçirilən və perspektivdə reallaşdırılması nəzərdə tutulan layihələr barədə məlumat verilib. Qeyd olunub ki, «Bakı Ağ Şəhər» layihəsi ərazisində Xəzər dənizindən 25 metr hündürlükdə yerləşən Park rayonunda da inşaat işləri davam edir. Burada tikilən iyirmimərtəbəli yaşayış binalarının hündür podiumlarının üzərində istirahət və yaşıllıq zonaları, uşaq meydançaları olacaq. Hazırda burada tikinti, quruculuq və abadlıq işləri aparılır. Nizami parkının yaxınlığında bu rayonda «Knightsbridge (Naytsbric) Residence» kompleksinin tikintisi davam edir. Bu kompleksdə yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi planlaşdırılıb. Park rayonunun sakinlərə təhvili 2019-cu ilin sonunda gözlənilir.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağ Şəhər piyada körpüsünün və «Zaman» meydanının təməlini qoyublar. «Bakı Ağ Şəhər»də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verib.

Ölkəmizin vergi sistemi ciddi dəyişikliklər astanasındadır
səh. 2

İqtisadçı ekspertlər Vergi Məcəlləsinə dəyişiklikləri müzakirə ediblər
səh. 3

Əsas məqsəd istehlakçıların vergi uçotunda iştirakını təmin etməkdir
səh. 4

Vergi islahatları ilinin əsas hədəfləri yerinə yetirildi
səh. 5

# Ölkəmizin vergi sistemi ciddi dəyişikliklər astanasındadır

**Vergilər Nazirliyində keçirilmiş mətbuat konfransında vergilər nazirinin müavini Sahib Ələkbərov və nazirliyin yüksək vəzifəli rəsmiləri Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin mahiyyəti, məqsəd və hədəfləri barədə məlumat verib, mətbuat nümayəndələrinin suallarını cavablandırıblar.**








Vergilər nazirinin müavini Sahib Ələkbərov media nümayəndələrini salamlayaraq Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin artıq təsdiq olunduğunu, 2019-cu il yanvarın 1-dən qüvvəyə minəcəyini bildirib. Qeyd olunub ki, Vergi Məcəlləsinə edilən dəyişikliklərin geniş ictimaiyyətə və sahibkarlara ətraflı şəkildə çatdırılması ölkə başçısı tərəfindən Vergilər Nazirliyi qarşısında qoyulan mühüm tapşırıqlardan biridir: «Hazırda qarşımızda duran əsas vəzifələrdən biri də Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin mahiyyətinin vergi ödəyicilərinə nə verə biləcəyinin onlara çatdırılmasıdır. Bu məqsədlə vergi orqanları tərəfindən geniş məlumatlandırma və maarifləndirmə işləri aparılır və onların miqyası yeni ildən daha da genişləndiriləcək.

Vergilər naziri Mikayıl Cabbarov özü 3 televiziya kanalında - bir dövlət, bir ictimai və bir özəl telekanalda geniş müsahibə verərək hələ dəyişikliklər qəbul edilməmişdən əvvəl bu dəyişikliklərin nəyə görə zəruri olduğunu, fəlsəfəsi və hədəfləri barədə fikirlərini bölüşüb. Nazir həmin müsahibələrində yeni dəyişikliklərin ayrı-ayrı istiqamətləri barədə geniş məlumatlar verib. Ekspertlərlə, vətəndaş cəmiyyətinin nümayəndələri ilə nazirliyin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə səmərəli görüşlər keçirilib.

Milli Məclisdə Vergi Məcəlləsinə dəyişikliklərin müzakirəsinə başlanandan keçən müddət ərzində müxtəlif televiziya kanallarında həmin dəyişikliklərlə bağlı 100-dən çox süjet və nazirliyin rəhbər vəzifəli şəxslərinin çıxışları efirə verilib, saytlarda və qəzetlərdə çoxsaylı yazılar yer alıb. Vergilər nazirinin televiziyalardakı müsahibələri və nazirliyin rəhbər vəzifəli şəxslərinin çıxışları, habelə dəyişikliklərlə bağlı bir çox sənədlər, o cümlədən Vergi siyasəti departamenti tərəfindən hazırlanmış xüsusi təqdimat, habelə «Vergi Məcəlləsində edilmiş dəyişikliklər suallar və cavablarda» adlı kitabça elektron qaydada nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib və maraqlananlar istədikləri vaxt www.taxes.gov.az saytına daxil olmaqla həmin materiallarla tanış ola bilərlər.

Artıq yerlərdə nazirliyin və vergi orqanlarının əməkdaşlarının vergi ödəyiciləri ilə görüşlərinə start verilib. Bu qəbildən olan ilk görüşlərdən biri Naxçıvan şəhərində keçirilib. Hesab edirəm ki, bugünkü mətbuat konfransı da Məcəllədəki dəyişikliklərlə bağlı vergi ödəyicilərini maraqlandıran suallara aydınlıq gətirilməsində mühüm rol oynayacaq.

Məcəllədəki dəyişikliklərdə gözləntiləri diqqətə çatdıran S.Ələkbərov vurğulayıb ki, sahibkarların tam olaraq qanun çərçivəsində fəaliyyət göstərməsinə mane olan səbəblərin aradan qaldırılması və onların qanunvericiliyin tələblərinə əməl etməsi üçün məcəlləyə stimullaşdırıcı maddələr əlavə olunub, paralel olaraq qanunu bilərəkdən pozan, əvvəlcədən düşünülmüş şəkildə vergidən yayınmağa cəhd göstərən vergi ödəyicilərinə tətbiq olunacaq sanksiyalar sərtləşdirilib.

O da qeyd olunub ki, Vergi Məcəlləsinə edilmiş yeni dəyişikliklərlə bağlı qanun pozuntusuna yol vermiş vergi ödəyicilərinə qarşı bu hala birinci dəfə rast gəlindikdə sanksiya tətbiq edilməyəcək və yalnız yazılı xəbərdarlıq olunmaqla kifayətləniləcək, sanksiyalar qanun pozuntusuna ikinci dəfə və daha çox halda yol verildikdə tətbiq ediləcək.

Nazir müavini qeyd edib ki, vergi ödəyicilərini intizamlı, qanunvericiliyin tələblərinə əməl edən və əksinə, qanunları pozmaqla vergilərdən yayınmağa çalışan iki hissəyə bölmək olar. Məcəlləyə edilmiş dəyişikliklərin heç biri fəaliyyətini mövcud qanunlar çərçivəsində quran vergi ödəyicilərinin vəziyyətinin pisləşməsinə yönəlməyib, əksinə, onlar yeni güzəştlər və stimullaşdırıcı tədbirlər hesabına daha rahat işləyərək daha çox gəlir və mənfəət əldə etmək imkanları qazanacaqlar. Göründüyü kimi, məqsəd heç də kimisə cəzalandırmaq deyil, elə bir şərait yaratmaqdır ki, hamı dövlətin qanunlarına əməl etsin, qanun pozuntusuna bilərəkdən yol verənlər isə öz üzərlərində qanunun gücünü mütləq hiss edəcəklər ki, bu da ədalətli yanaşmadır».

Sonra Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin vergi qanunvericiliyi idarəsinin direktoru Əvəz Quliyev Vergi Məcəlləsinə edilən dəyişikliklərin əsas istiqamətləri barədə təqdimatlı çıxış edib. Təqdimatda dəyişikliklərin əsasən 5 istiqaməti əhatə etdiyi vurğulanıb:

- sahibkarlığın inkişafının dəstəklənməsi;
- «kölgə iqtisadiyyatı»nın azaldılması və iqtisadiyyatın şəffaflaşdırılması;
- vergitutma bazasının genişləndirilməsi
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- vergi güzəştlərinin iqtisadi səmərəliliyinin yüksəldilməsi.

> Əmək bazarının leqallaşdırılması məsələlərinin iqtisadi stimullar verilməsi yolu ilə həll olunacağı gözlənilir

Qeyd edilib ki, bu istiqamətlər arasında, ilk növbədə, sahibkarlığın inkişafının dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. Dəyişikliklərə uyğun olaraq, yanvarın 1-dən sadələşdirilmiş vergi ölkə üzrə vahid dərəcə ilə tətbiq olunacaq: «Bu vaxta qədər sadələşdirilmiş vergi dərəcəsi Bakı şəhərində dövriyyənin 4 faizi, regionlarda isə 2 faizi həddində müəyyən edilmişdi. Gələn ildən isə ölkə üzrə sadələşdirilmiş vergi dərəcəsi vahid dərəcə - 2 faiz dərəcəsi ilə hesablanacaq. Bundan əlavə, mikrosahibkarlıq fəaliyyəti subyektlərinin gəlirlərinin və mənfəətinin 75 faizi vergidən azad olunur. Həmin kateqoriyaya daxil olan şəxslərin əmlak vergisindən tam azad edilməsi də qanunvericilikdə təsbit olunub».

### Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin meyarları müəyyənləşib

Əvəz Quliyev qeyd edib ki, Nazirlər Kabineti artıq «Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları»nı təsdiq edib. Həmin sənədə əsasən, mikrosahibkarlıq subyekti dedikdə, işçilərinin sayı 10 nəfərə, illik dövriyyəsi 200 min manata qədər olan hüquqi şəxslər və fərdi sahibkarlar nəzərdə tutulur. Kiçik sahibkarlar 11-50 işçisi və 3 milyon manatadək dövriyyəsi olanlardır. İşçi qüvvəsi 51 nəfərdən 250 nəfərədək, illik dövriyyəsi 3-30 milyon manat olanlar orta sahibkar, işçilərinin sayı 251-dən, illik dövriyyəsinin həcmi 30 milyon manatdan çox olanlar isə iri sahibkar hesab olunurlar.

Media təmsilçilərinin nəzərinə çatdırılıb ki, sahibkarlığın inkişafının dəstəklənməsi tədbirləri çərçivəsində dəyişikliklərdən biri də inzibati şikayətlər zamanı vergi orqanının hesabladığı vergi məbləğlərinin vergi ödəyicilərinin bank hesabından silinməsinin qadağan olunmasıdır. Hazırda qüvvədə olan qanunvericiliyə görə, vergi orqanı sahibkara qarşı sanksiya tətbiq etdikdə həmin vəsait dərhal sahibkarın bank hesabından silinirdi. Sonradan məhkəmə çəkişməsi zamanı vergi ödəyicisi haqlı sayıldığı hallarda, həmin vəsaitin geri qaytarılması müəyyən vaxt tələb edirdi və sahibkarların narazılığına səbəb olurdu. Gələn ildən isə vergi ödəyicisi vergi orqanından şikayətçi olduğu zaman onun bank hesabından vəsaiti silinməyəcək: «Bank hesabından pulun silinməsi yalnız məhkəmənin qərarı ilə həyata keçiriləcək. İndiyə qədər vergi ödəyicisi 30 gün ərzində məhkəməyə şikayət etdiyi halda, onun bank hesabındakı vəsaitinin silinməsi dayandırılırdı. Bundan sonra isə həmin qayda inzibati şikayətlərə də şamil olunacaq. Yəni vergi ödəyicisi vergi orqanının hesablamalarından Vergilər Nazirliyinə şikayət verdiyi halda, onun bank hesabından vəsaitin silinməsi dayandırılacaq. Bu qayda ƏDV depozit hesabından vəsaitlərin silinməsindən imtina edilməsi və həmin vəsaitlərin dondurulmasına da tətbiq olunur».

Qeyd edilib ki, mühasibat uçotunu elektron formada aparanlar da güzəşt əldə edəcək. Gələn ilin yanvarından mühasibat uçotunu elektron formada aparan vergi ödəyicilərinə tətbiq olunan maliyyə sanksiyasının həcmi 50 faizdən 25 faizə endirilməklə onlar müəyyən üstünlük qazanacaqlar. Dəyişikliklər sırasında düzgün uçot aparan ƏDV ödəyicisi olmayan şəxslərin təsisçisinin dividend gəlirlərinin vergidən azad edilməsi, pərakəndə ticarət və iaşə sahələrində nağdsız ödənişlər üzrə sahibkara güzəştin verilməsi də var. Vergi Məcəlləsinə vətəndaşlar tərəfindən pərakəndə ticarət və iaşədə nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizinin, kassa çeki təqdim olunduqda nağd qaydada ödənilmiş ƏDV-nin 10 faizinin qaytarılması barədə müddəa daxil edilib.

### İqtisadiyyatın şəffaflaşması mühüm şərtdir!

Məcəlləyə edilmiş dəyişikliyə əsasən, pərakəndə ticarətdə və iaşədə nağdsız ödənişlər üzrə sahibkarlara güzəştlər ediləcək. Ofisiant, bərbər, dərzi fəaliyyəti ilə məşğul olan şəxslər isə gəlirindən asılı olmayaraq sabit qəbz sisteminə keçəcəklər.

Əvəz Quliyev bildirib ki, dəyişikliklərə uyğun olaraq, qeyri-neft sektorunda çalışan işçilərin əməkhaqqından tutulan gəlir vergisi üzrə vergi yükü əhəmiyyətli dərəcədə azaldılacaq: neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən müəssisələrdə çalışan fiziki şəxslərin gəlirləri 8.000 manatadək olduqda verginin dərəcəsi 0 faiz təşkil edəcək. Həmin məbləğdən yuxarı əməkhaqqı alanlar isə əməkhaqqının 8.000 manatdan artıq hissəsi üzrə 14 faiz həcmində vergi ödəyəcəklər. Hazırda qüvvədə olan qanunvericiliyə əsasən, muzdlu işlə əlaqədar gəlir əldə edən şəxslərdən tutulan sosial sığorta haqlarının həcmi fəaliyyət göstərdiyi iqtisadi sektordan asılı olmayaraq işçi və işəgötürən üzrə müvafiq olaraq 3 faiz və 22 faiz olmaqla, üstüstə 25 faiz təşkil edir. Yeni dəyişikliklərə əsasən, qeyri-neft sektorunun özəl bölməsində ödənilən əməkhaqqı 200 manatadək olduqda nisbət dəyişmir, 200 manatdan çox olduqda isə işçi və işəgötürən üzrə müvafiq olaraq 6 manat + 10 faiz və 44 manat + 15 faiz olmaqla cəmi 25 faiz təşkil edir. Bu islahatın əsas məqsədi əmək bazarının leqallaşdırılması və qeyri-rəsmi məşğulluğun qarşısının alınmasıdır. İndiyədək həyata keçirilmiş inzibati tədbirlər çərçivəsində əmək bazarının leqallaşdırılmasına nail olunmayıb və hesab edilir ki, bu məsələlər iqtisadi stimulların verilməsi yolu ilə həll olunacaq.

Qeyd edilib ki, işəgötürənlərə verilən stimullaşdırıcı güzəştlərlə yanaşı, vergi ödəyiciləri tərəfindən qanunvericiliyin tələblərinə əməl olunmadığı hallarda tətbiq ediləcək maliyyə sanksiyalarının həcminin artırılması nəzərdə tutulur. İşəgötürən təqvim ilində belə hala birinci dəfə yol verdikdə 2.000 manat, ikinci dəfə 4.000 manat, üç və daha çox dəfə yol verdikdə 6.000 manat məbləğində cərimə olunacaq. Malların elektron qaimə və ya elektron vergi hesab-fakturası verilmədən satılmasına görə məhsul satan şəxslərə də sanksiya tətbiq ediləcək. Birinci dəfə belə hallara yol verildikdə maliyyə sanksiyalarının məbləği 10 faiz, ikinci dəfə 20 faiz, üç və daha çox dəfə yol verdikdə isə 40 faiz məbləğində olacaq.

### Sənədləşmə mütləq olmalıdır

Vergilər nazirinin müavini Sahib Ələkbərov jurnalistlərin suallarını cavablandırarkən ölkədə uçot sisteminin təkmilləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını və bunun çox mühüm tələbə çevrildiyini vurğulayıb: «Vergi sistemində uçot və qeydiyyat məsələlərinə ciddi fikir verilməlidir. Biz bu məsələlərlə bağlı istehsalçılarla görüşlər keçirmişik. Onlar təqdim etdikləri mallara görə sənəd verdiklərini, bəzən həmin sənədləri ticarət şəbəkəsində çalışanların almaq istəmədiklərini bildirirlər. Artıq gömrük sistemində də ciddi şəffaflaşdırma tədbirləri görülür və onlar da deyir ki, sərhəddən keçirilən bütün malların sənədləri var. Qanunvericiliyə edilmiş dəyişikliklər imkan verəcək ki, indiyə kimi həyata keçirilmiş tədbirlərlə birlikdə sənədsiz mal dövriyyəsinin qarşısı alınsın».

2018-ci ildə Azərbaycanda səyyar vergi yoxlamalarının əsaslı şəkildə azaldığına diqqət yönəldən Sahib Ələkbərov bildirib ki, bu il cəmi 1500-dən bir qədər çox səyyar vergi yoxlaması aparılıb: «Bu, 2017-ci ildəkinə nisbətən 3 dəfə azdır və ümumilikdə hər 600-dən yuxarı, aktiv vergi ödəyicilərinə nisbətdə isə hər 300-ə yaxın vergi ödəyicisindən birində yoxlama aparılması deməkdir».

Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, gələn ildən ilk dəfə tətbiq olunacaq məcburi nişanlanma işlərinə hazırlıq aparılması barədə məlumat verilərək bildirilib ki, artıq nişanlanması məcburi olan malların siyahısı hazırlanır.

### Kənd təsərrüfatına verilən güzəştin məbləği milyardlarla ölçülür

Sahib Ələkbərov kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən imtiyazları xüsusi qeyd edib. Bildirib ki, kənd təsərrüfatına tətbiq edilən vergi güzəştlərinin müddəti 2019-cu il yanvarın 1-dən daha 5 il müddətinə uzadılacaq: «1999-cu ildən bu günə qədər kənd təsərrüfatı məhsullarının istehsalçılarına ciddi güzəştlər verilib. Bu vaxta qədər dövlətin aqrar sahəyə verdiyi güzəştlərin maliyyə tutumu milyard manatlarla ölçülür. Dövlətin büdcəsinə daxil olmalı həmin vəsaitlər sahibkarların sərəncamında qalıb və ümid edirik ki, onlardan səmərəli istifadə olunması nəticəsində kənd təsərrüfatı daha böyük sürətlə inkişaf edəcək».

### Sosial sığorta hesabatlarının verilməsi qaydası təkmilləşdirilib

Mətbuat konfransında yanvarın 1-dən sosial sığorta hesabatlarının hansı orqana təqdim olunması ilə bağlı məsələyə də aydınlıq gətirilib. Vergilər Nazirliyinin İqtisadi təhlil və ekspertiza departamentinin baş direktoru Natiq Şirinov bu barədə sualı cavablandırarkən deyib ki, Vergi Məcəlləsinə və «Sosial sığorta haqqında» və «İşsizlikdən sığorta haqqında» Qanunlara edilən dəyişikliklərə əsasən, Vergi Məcəlləsinin müvafiq maddələri məcburi dövlət sosial sığorta haqqı və işsizlikdən sığorta haqqına münasibətdə də tətbiq olunacaq. Gələn ildən 2018-ci ilin 4-cü rübünə aid hesabatlar və 2019-cu ildən başlayaraq rüblər üzrə sosial sığorta haqqı və işsizlikdən sığorta hesabatları vergi orqanlarına təqdim olunacaq: «Hesabatların qəbulu ilə yanaşı, yığım funksiyası da Vergilər Nazirliyinə verilib. Bundan sonra Dövlət Sosial Müdafiə Fondunun gəlirləri Vergilər Nazirliyi tərəfindən təmin olunacaq. Bununla bağlı bütün təşkilati işlər, o cümlədən sığortaedənlər üzrə şəxsi vərəqənin yaradılması işləri başa çatmaq üzrədir».

> Yeni nəsil kassa aparatları hər bir əməliyyatı real vaxt rejimində avtomatik olaraq vergi orqanına ötürəcək

### Xidməti müqavilə ilə işləyənlər sadələşdirilmiş verginin ödəyicisi ola bilməyəcəklər

Natiq Şirinov bildirib ki, hazırda xidməti müqavilələrin çoxu əmək münasibətlərinin pərdələnməsi məqsədi daşıyır. Qanunvericiliyə edilən dəyişiklikdə bu məsələ də nəzərə alınıb: «Gələn ildən xidməti müqavilə ilə işləyənlər sadələşdirilmiş verginin ödəyicisi ola bilməyəcəklər: onlar gəlir vergisi rejiminə keçməli olacaqlar. Gəlir vergisi rejiminə keçdikdə, VÖEN ilə işləyərək ayda 1.000 manat gəlir əldə edən fiziki şəxs, xərci yoxdursa, gəlirinin 20 faizi qədər - 200 manat vergi hesablayacaq. Dövlət hesablanmış verginin 75 faizini güzəşt edir. Yəni xidməti müqavilə ilə işləyib 1.000 manat qazanan fiziki şəxs ayda 50 manat gəlir vergisi ödəyəcək».

VÖEN-i olan ödəyici xərclərini gəlirindən çıxdığı halda, daha az vergi ödəyə bilər. Məsələn, 1.000 manat aylıq gəlir əldə etmək üçün 300 manat xərc çəkilirsə, bu zaman qalan 700 manatın 20 faizi (140 manat) gəlir vergisi olaraq hesablanacaqdır. Qanunla gəlir vergisinin 75 faizi güzəşt edildiyindən, cəmi 35 manat vergi ödəniləcəkdir.

### Yeni nəsil kassa aparatları tətbiq olunacaq

Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin baş direktoru Samirə Musayeva ticarət və xidmət obyektlərində vergi nəzarəti tədbirlərinə dair yeniliklər barədə bildirib ki, bu obyektlərdə yeni nəsil nəzarət-kassa (NKA) aparatlarının mərhələli şəkildə tətbiqi nəzərdə tutulur: «Onlayn kassa aparatlarına keçid birdən-birə bütün ölkə ərazisini əhatə etməyəcək. Texniki həllərlə bağlı ayrıca normativ-hüquqi akt hazırlanacaq. Kassa aparatı hər bir əməliyyatı real vaxt rejimində avtomatik vergi orqanına ötürməlidir. Bu funksiyanın təmin olunması üçün variantlar nəzərdən keçirilir, mövcud kassa aparatlarına kiçik qurğu əlavə edilə, yaxud aparatlar dəyişdirilə bilər».

Yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi ilə yanaşı, kassa çekində göstərilməli olan məlumatlarda da dəyişikliklər edilib: istehlakçıların hüquqlarının qorunması məqsədilə NKA çeklərində təsərrüfat subyektinin adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan, çekin müvafiq icra hakimiyyəti strukturunun müəyyən etdiyi orqanın elektron informasiya sisteminə ötürülüb-ötürülməməsinə dair qeyd və malın sürətli məlumat kodu da əks etdiriləcək.

Samirə Musayeva vergi qanunvericiliyində vergidən yayınmanın qarşısının alınması ilə bağlı ictimai məlumatlandırma sisteminin də nəzərdə tutulduğunu söyləyib: «Əgər vergidən yayınma ilə bağlı məlumat daxil olarsa, dərhal yerində yoxlamalar aparılır».

Xatırladaq ki, vergidən yayınma hallarının qarşısını almaq məqsədilə ictimai məlumatlandırma («Whistleblow») mexanizmi beynəlxalq təcrübədə geniş tətbiq olunur. «Whistleblow» (fit verən) pozuntular barədə dövlət qurumlarına və ya ictimaiyyətə məlumatvermə deməkdir.

**Davamı 3-cü səhifədə**

# İqtisadçı ekspertlər Vergi Məcəlləsinə dəyişiklikləri müzakirə ediblər

**Dekabrın 21-22-də Vergilər Nazirliyinin təşkilatçılığı ilə nazirliyin Şamaxıda yerləşən Tədris Mərkəzində Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı «dəyirmi masa» keçirilib. Nazirliyin yüksək vəzifəli rəsmilərinin, iqtisadçı ekspertlərin, ictimai təşkilatların təmsilçilərinin iştirakı ilə keçirilmiş tədbirdə vergi sistemində aparılan islahatlar müzakirə olunub.**



Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov «dəyirmi masa» iştirakçılarını salamlayaraq vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar, dəyişikliklərin mahiyyəti və məqsədləri barədə geniş məlumat verib. Bildirib ki, Vergi Məcəlləsinə edilən dəyişikliklər ümumilikdə beş əsas istiqaməti əhatə edir: «Bu dəyişikliklərin əsas mahiyyəti və prinsipləri «kölgə iqtisadiyyatı»nın azaldılması, vergidən yayınma hallarının qarşısının alınması, eləcə də iqtisadiyyatın müxtəlif sahələri üçün nəzərdə tutulmuş vergi güzəştlərinin səmərəliliyinin artırılması, pərakəndə halda olan bəzi güzəşt və imtiyazların gələcəkdə optimallaşdırılması əsas hədəflərdəndir».

Nazir müavini qeyd edib ki, Vergi Məcəlləsinə edilən dəyişikliklər və ümumilikdə vergi sistemində həyata keçirilən islahatlar qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, işçilərlə işəgötürənlər arasında əmək münasibətlərinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılması və bunun sayəsində əmək bazarının sağlamlaşdırılmasına xidmət edəcək: «Çünki «kölgə iqtisadiyyatı» təkcə dövlət büdcəsinin gəlirlərinin azalmasına təsir etmir, həm də ölkənin ümumi iqtisadi inkişafını ləngidir, sahibkarlığın dəstəklənməsi istiqamətində görülən tədbirlərin səmərəsini aşağı salır, işçilərin əmək və sosial hüquqlarının təmin olunmasında çətinliklər yaradır. Ona görə də Vergi Məcəlləsinə dəyişikliklərdə bu sahədəki neqativ halların aradan qaldırılması ilə bağlı yeni tələblər qoyulub, həm işəgötürənlərin, həm də işçilərin hüquq və mənafelərinin qorunması üçün yeni mexanizmlər müəyyənləşdirilib».

Sahir Məmmədxanov vergi inzibatçılığı sahəsində görülən işlər, o cümlədən aksizlərin əhatə dairəsinin genişləndirilməsi, elektron hesab-fakturaların tətbiqi və sənədsiz malların satışının qarşısının alınması, idxal mallarının təqib və izləmə mexanizminin qurulması, nağdsız hesablaşmaların stimullaşdırılması istiqamətində atılan addımlar barədə də məlumat verib. Bildirilib ki, Vergi Məcəlləsinə edilən dəyişikliklərdə bu və ya digər məsələlərlə bağlı yeni hədəflər müəyyən edilib.

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov və İqtisadi təhlil və ekspertiza departamentinin baş direktoru Natiq Şirinov müstəqil ekspertlərin mövzu ilə bağlı suallarını cavablandırıblar.

Müzakirələrdə özəl sektorun fəaliyyətində şəffaflıq, ticarət və xidmət sahələrində hesab-faktura və malların sənədləşdirilməsi, eləcə də xidmət sektoruna aid sabit vergi ödəyicilərinin əhatə dairəsinin genişləndirilməsi məsələləri diqqət mərkəzində olub, müxtəlif vergi növləri üzrə təqdim olunan bəyannamə formaları ilə bağlı təkliflər səsləndirilib. Tədbirdə Vergi Məcəlləsinə dəyişikliklərin tətbiqi zamanı ortaya çıxa biləcək problemlərin aradan qaldırılması üçün mümkün mexanizmlərlə bağlı fikir mübadiləsi aparılıb. Bildirilib ki, 2019-cu ilin əvvəlindən tətbiqinə başlanacaq dəyişikliklərin daha rahat və səmərəli icrası üçün vergi orqanları ilə qarşılıqlı əməkdaşlığa, ictimai maarifləndirməyə böyük ehtiyac var. Bunu nəzərə alaraq, gələn ilin əvvəlində Vergilər Nazirliyində müstəqil ekspertlərin və ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə növbəti görüşün keçirilməsi qərara alınıb.

İki gün davam edən ictimai müzakirələr zamanı «Vergi qanunvericiliyinin şərhi», «Vergi inzibatçılığının təkmilləşdirilməsi məsələləri», «Mühasibat uçotu və vergi hesabatları», «Əmək münasibətlərinin tənzimlənməsi» mövzuları diqqət mərkəzində olub. Toplantıda ölkənin tanınmış iqtisadçı mütəxəssisləri və mühasiblərdən ibarət 20-dən artıq müstəqil ekspert, habelə İqtisad və Bakı Dövlət universitetlərinin əməkdaşları iştirak ediblər. Müzakirələrin sonunda səsləndirilən təkliflər ümumiləşdirilib, növbəti görüş üçün konkret mövzular müəyyənləşdirilib.

**Elxan SALAHOV**

# İxracatın önündə «Yaşıl dəhliz» açılır

**Dekabrın 24-də Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə «Xarici ticarət iştirakçılarının forumu: «Yaşıl dəhliz» buraxılış sisteminin tətbiqi» mövzusunda tədbir keçirilib. Tədbirdə dövlət orqanlarının, yerli və xarici biznes qurumlarının nümayəndələri, eləcə də 500-ə yaxın sahibkar iştirak edib.**

## Sahibkarlar ixrac əməliyyatını gömrük orqanına getmədən apara biləcəklər

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev ölkəmizdə həyata keçirilən islahatların mühüm tərkib hissəsi kimi gömrük sistemində tətbiq edilən yeniliklər barədə məlumat verib. Qeyd olunub ki, dövlət başçısının təsdiq etdiyi «Xarici ticarət iştirakçılarının «Yaşıl dəhliz» buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası qaydası» ticarət sahəsində yeni innovativ vasitələrin tətbiqini nəzərdə tutur. Yeni qaydalara əsasən, sahibkarlar 2019-cu il fevralın 1-dən «Yaşıl dəhliz» buraxılış sistemindən istifadə etməklə gömrük orqanına getmədən, gömrük əməkdaşı ilə təmasda olmadan qısa idxal bəyannaməsini əvvəlcədən elektron qaydada göndərməklə malların yükləmə və gömrük rəsmiləşdirməsi proseslərini keçəcək, nəqliyyat vasitələrini gömrük təminatının tanınma nişanları, plomblarla təmin edərək istənilən gömrük-sərhəd buraxılış məntəqəsindən ixrac əməliyyatını aparacaqlar: «Bu, idxal-ixrac əməliyyatlarında ticarətin asanlaşdırılmasına, vaxt məhdudiyyətinin aradan qaldırılmasına, logistik xidmətlərə çəkilən xərclərin ləğvinə, məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsinə və şəffaflığın təmin olunmasına imkan verəcəkdir. Yeni sistem maliyyə intizamının gücləndirilməsinə, sahibkarların könüllü əməletməsinin formalaşmasına şərait yaradacaq».

«Yaşıl dəhliz» buraxılış sisteminin tətbiqinə dair təqdimatla çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayev sistemin biznes və ölkəmiz üçün üstünlüklərindən danışıb. Bildirib ki, yeni sistem beynəlxalq ticarətin asanlaşmasına, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin daha çevik və şəffaf həyata keçirilməsinə, risk qiymətləndirilməsi əsasında gömrük nəzarəti formalarının tətbiqinə, ölkəmizin ixrac potensialının güclənməsinə, Azərbaycanın «Doing Business» və digər beynəlxalq hesabatlarda bir sıra indekslər üzrə mövqeyinin yaxşılaşmasına səbəb olacaqdır.

## Şəffaflığın təmin edilməsi üçün əl-ələ...

Forumda çıxış edən vergilər nazirinin müavini Mətin Eynullayev bildirib ki, 2018-ci il ölkəmizdə iqtisadi islahatlar ili kimi yadda qalacaqdır. Yola saldığımız ildə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin şəffaflaşdırılması sahəsində xeyli işlər görülüb, həm vergi, həm də gömrük sahəsində geniş və sistemli islahatlar həyata keçirilib, qanunvericilikdə biznesin fəaliyyətini stimullaşdıran mühüm dəyişikliklər edilib: «Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi dövlətimizin büdcə gəlirlərinin formalaşmasında mühüm rol oynayır, hər iki qurum biznes mühitinin yaxşılaşması, sahibkarlığın fəaliyyətinin stimullaşdırılması, vergi-gömrük rejiminin optimallaşdırılması, «kölgə iqtisadiyyatı»nın qarşısının alınması, şəffaflığın təmin edilməsi, müasir idarəetmə və nəzarət alətlərinin tətbiqi sahəsində birgə mühüm addımlar atıb və bu istiqamətdə işlər davam etdirilir. «Yaşıl dəhliz» sistemi də gömrük sahəsində aparılan islahatların tərkib hissəsi kimi qiymətləndirilə bilər. «Yaşıl dəhliz» buraxılış sistemi ilə bağlı yeni qaydanın tətbiqi şəffaflığın təmin olunması üçün bir nümunədir, bu sistem xarici ticarət iştirakçılarının bir sıra üstünlüklər əldə etməsinə şərait yaradacaq. Bəyannamələrin mallar gəlməzdən öncə elektron qaydada ötürülməsi əlavə vaxt itkisinin və məsrəflərin qarşısını alacaq, işgüzar fəaliyyətin genişlənməsinə, gəlirlərin artmasına müsbət təsir göstərəcək».

M.Eynullayev bildirib ki, vergi və gömrük orqanları qarşısında duran mühüm vəzifələrdən biri də inzibatçılığın təkmilləşdirilməsinə və könüllü əməletmə mədəniyyətinin formalaşdırılmasına nail olmaqdır: «Yaşıl dəhliz» idxal-ixracla məşğul olan sahibkarların daha asan və rahat əməliyyatlar aparmasına əlverişli imkan yaratmaqla könüllü əməletmə səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərəcək».

Vergilər nazirinin müavini gömrük orqanı ilə səmərəli əməkdaşlığın qurulmasının əhəmiyyətini vurğulayaraq qeyd edib ki, hər iki qurumun fəaliyyətinin daha sıx əlaqələndirilməsi məqsədilə idxal-ixrac əməliyyatlarına effektiv nəzarət sistemi qurulub. Birgə əməkdaşlıq əsasında yaradılmış Vahid Risk Platforması idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə, maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılmasına və büdcə yığımlarının artırılmasına töhfə verəcəkdir.

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər barədə də iştirakçılara məlumat verən M.Eynullayev bildirib ki, vergi və gömrük sistemlərində paralel aparılan islahatlar sahibkarların daha effektiv və şəffaf fəaliyyət göstərməsinə şərait yaradacaq, 2019-cu ildə biznes sektoru bunun əməli təsirini hiss edəcəklər.

## Aqrar sahədə çalışanların ixraca həvəsi artacaq

Kənd təsərrüfatı naziri İnam Kərimov çıxışında aqrar sahənin inkişafı istiqamətində görülən işlər barədə məlumat verərək bildirib ki, «Yaşıl dəhliz» buraxılış sistemi kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan sahibkarlar üçün mühüm əhəmiyyət kəsb edir və yeni sistem aqrar malların ixracının artmasına stimul yaradacaq, xarici bazarlarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətini artıracaq.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli qeyd edib ki, rəhbərlik etdiyi qurumun əsas fəaliyyət istiqamətlərindən biri idxal-ixrac əməliyyatlarında qida təhlükəsizliyinə nəzarətin təmin olunmasıdır. Bu baxımdan, «Yaşıl dəhliz» sistemi qida məhsullarının idxal və ixrac prosesində sahibkarlara dəstək olacaq və şəffaflıq prinsipinin gözlənilməsinə zəmin yaradacaq.

## Azərbaycan Avropa ilə Asiya arasında regional tranzit qovşağını tamamlayacaq

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, «Yaşıl dəhliz»in mühüm geosiyasi və geoiqtisadi əhəmiyyəti vardır. Azərbaycan hazırda Şimal-Cənub, Şərq-Qərb tranzitinin mühüm hissəsinə çevrilməkdədir: «Qazaxıstan və Çin «Yaşıl dəhliz» sisteminə qoşulmaqla rəqəmsal onlayn ticarətin genişlənməsinə əlverişli zəmin yaradıb, Gürcüstan isə ötən il Avropa İttifaqı ilə bu dəhlizin istifadəsinə dair saziş imzalayıb. Beləliklə, Azərbaycan «Yaşıl dəhliz» sisteminin tətbiqi ilə Avropa və Asiya arasında regional tranzit qovşağını tamamlamış olacaq».

Tədbirdə çıxış edən «Caspian European Club»un icraçı direktoru Telman Əliyev, Azərbaycandakı Amerika Ticarət Palatasının (AmCham) icraçı direktoru Natəvan Məmmədova «Yaşıl dəhliz» sisteminin tətbiqinin sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında, ölkənin ixrac potensialının gücləndirilməsində və şəffaflığın təmin olunmasında mühüm rol oynayacağını bildiriblər.

**Elbrus CƏFƏRLİ**

# Ölkəmizin vergi sistemi ciddi dəyişikliklər astanasındadır

**Əvvəli 2-ci səhifədə**

**Xərclərin uçotu düzgün aparılmalıdır!**

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov vergi ödəyicilərinin və onların təsərrüfat subyektlərinin uçota alınması, uçot yerinin dəyişdirilməsi ilə bağlı məlumat verib. Bildirib ki, Vergi Məcəlləsinin 33.2-ci maddəsinə əsasən, vergi ödəyicisinin digər təsərrüfat subyekti olduqda həm özünün, həm də digər təsərrüfat subyektinin olduğu ünvan üzrə vergi orqanına təqdim etdiyi ərizə əsasında uçota alınır. Məcəlləyə «İqtisadi maraqlar üzrə uçot» anlayışı da daxil edilib. Yeni ildən etibarən vergi ödəyicisi faktiki fəaliyyət göstərdiyi yer üzrə, bir neçə vergi orqanının nəzarət dairəsində fəaliyyət göstərdiyi halda isə iqtisadi göstəriciləri daha yüksək olan yer üzrə uçota alınacaq.

Vergi ödəyicisinin uçot məlumatlarının vergi orqanları tərəfindən dürüstləşdirilməsi ilə bağlı bildirilib ki, nəzarət tədbirləri zamanı ödəyicilərin uçot məlumatları ilə faktiki məlumatları arasında hər hansı kənarlaşma aşkarlandıqda vergi orqanı tərəfindən vergi ödəyicisini məlumatlandırmaqla uçot məlumatlarının dürüstləşdirilməsi hüququ verilib.

Məcburi dövlət sosial sığorta məqsədləri ilə uçota alınmaya da aydınlıq gətirilərək qeyd edilib ki, «Sosial sığorta haqqında» Qanuna edilən dəyişikliklərə əsasən, məcburi dövlət sosial sığorta münasibətlərinin iştirakçısı olan şəxslərin uçota alınması və onlar tərəfindən məcburi dövlət sosial sığorta haqqı və işsizlikdən sığorta haqqının ödənilməsinə nəzarət Vergilər Nazirliyi tərəfindən həyata keçiriləcək. Bu məqsədlə VÖEN-i olmayan, lakin məcburi dövlət sosial sığorta haqlarının ödəyicisi olan şəxslər vergi uçotuna alınmalı və onlar da müvafiq qaydada hesabatlarını vergi orqanına təqdim etməlidirlər.

> 2018-ci ildə 1500-dən bir qədər artıq səyyar vergi yoxlaması aparılıb ki, bu da ümumilikdə hər 600-dən yuxarı, aktiv vergi ödəyicilərinə nisbətdə isə hər 300-ə yaxın vergi ödəyicisindən birində yoxlama aparılması deməkdir

Hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində də ciddi yeniliklərin olduğu bildirilib. Dəyişikliyə əsasən, kommersiya qurumları və publik hüquqi şəxslərin kağız daşıyıcıda dövlət qeydiyyatı zamanı, həmçinin yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı zamanı təqdim olunan ərizə təsisçi ilə yanaşı, həm də qanuni təmsilçi tərəfindən imzalanmalıdır: «Elektron qeydiyyat zamanı müraciət ərizəsinin həm də qanuni təmsilçi tərəfindən təsdiq edilməsi ilə bağlı proqram təminatında müvafiq dəyişiklik aparılıb və artıq həmin sistem istifadəyə verilib. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna edilmiş dəyişikliyə əsasən, kommersiya qurumlarının və publik hüquqi şəxslərin təqdim etdikləri ərizədə onun hüquqi ünvanına dair məlumat göstərilməlidir».

**Vəkil, mühasib və auditorların vergi ödənişləri necə hesablanacaq?**

Media təmsilçiləri xidmət fəaliyyəti ilə məşğul olan bəzi şəxslərin sadələşdirilmiş vergi ödəyicisi qismində saxlanılması, digərlərinin isə mikrobiznes subyektinə aid edilməsi ilə bağlı məsələyə də aydınlıq gətirilməsini xahiş ediblər. Samirə Musayeva bildirib ki, Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, bir sıra fəaliyyət sahələrinin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ məhdudlaşdırılıb: «Onlar vətəndaşa yox, biznesə xidmət göstərən şəxslərdir. Vəkil, mühasib, auditor vətəndaşlara xidmət göstərdikləri halda, onlara dövriyyənin həcmindən asılı olaraq sadələşdirilmiş vergi rejimi tətbiq ediləcək. Sahibkarla bağlanmış müqavilə əsasında sahibkara xidmət göstərən subyektlərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ olmayacaq. Bu dəyişiklik bir sıra zəruri məsələlərlə bağlıdır. Məsələn, sahibkara xidmət göstərən başqa bir sahibkar qarşı tərəfə öz xərcini və gəlirini göstərmək istəmir, yaxud sadələşdirilmiş vergi rejimi ilə işlədiyi halda qarşı tərəfin tələbinə baxmayaraq, ona qaimə-faktura vermir, nəzarət-kassa aparatının çeki isə sonradan rəsmiləşdirilir. Bəzən bir sahibkar başqa sahibkara mal, iş və ya xidmət təqdim etdikdə, istisna hallarda hüquqi xidmət göstərdikdə elektron qaimə-faktura təqdim etməlidir ki, qarşı tərəf öz xərcini sübut edə bilsin. Lakin bəzi hallarda qarşı tərəf gəlirini gizlətdiyindən xərcini də leqallaşdırmır. Bütün bunlar sui-istifadə hallarına yol açır. Vergi ödəyicilərinin öz əməliyyatlarını rəsmiləşdirməsi qaydaları Vergi Məcəlləsi ilə müəyyən olunur və bu cür halların qarşısının alınması məqsədilə qanunvericilikdə müvafiq dəyişikliklər edilib. Qərara alınıb ki, sahibkarlar arasında əməliyyat aparılırsa, həmin şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmasın, gəlir və xərclərin dəqiq uçotu aparılsın və əldə edilən xalis gəlirdən və yaxud mənfəətdən 75 faiz güzəşt tətbiq edilməklə vergi ödənilsin».

Sahibkarın il ərzində mikro sahibkarlıq subyektindən kiçik sahibkarlıq subyektinə keçdiyi halda ona vergi güzəştinin necə tənzimlənməsi ilə bağlı suala cavab verən Samirə Musayeva bildirib ki, gəlir və mənfəət vergisi ilə bağlı bəyannamə ildə bir dəfə təqdim edildiyi üçün ödənişlərin ritmikliyində yubanma olmasın deyə, bu, ilkin ödəniş sayılır: «İl başa çatdıqdan sonra mənfəət vergisi üzrə bəyannamə verildiyindən, cari ödəmələr bəyannamə ilə müqayisədə daha az ola bilər. Ödəmələr az olduqda kəsir qalan hissə büdcəyə bərpa olunur. Əksinə, artıq olduqda həmin hissə növbəti vergi öhdəliklərinə yönəldilə bilər. Sahibkar yeni qeydiyyata alınıbsa və mikro sahibkar kateqoriyasına aiddirsə, cari ödəmələrini 75 faiz güzəşt nəzərə alınmaqla verəcək. Mənfəət vergisi üzrə bəyannamə təqdim etdiyi zaman onun mikro sahibkarlıq subyekti olmadığı müəyyənləşərsə, kiçik sahibkarlıq üzrə vergi ödəyicisi hesab olunacaq».

**Elxan SALAHOV**
**Fəxriyyə Cəbrayılova**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Abşeron rayonunda yerləşən və xüsusi mülkiyyətimdə olan yaşayış evinə görə nə qədər əmlak vergisi ödəməliyəm?***

Vergi Məcəlləsinin 197.1.1-ci maddəsinin müddəalarına əsasən, rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

Vergi Məcəlləsinin 198.1.1-ci maddəsinin müddəalarına görə, fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə bina Abşeron rayonunda yerləşdikdə 0,3 manat tətbiq edilməklə hesablanır.

Vergi Məcəlləsinin 200.1-ci maddəsinin müddəalarına uyğun olaraq, fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır.

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin xüsusi mülkiyyətində olan və Abşeron rayonunda yerləşən yaşayış evinə görə əmlak vergisi həmin evin ümumi sahəsinin 30 kvadratmetrindən artıq olan hissəsinin hər kvadratmetrinə 0,3 manat tətbiq edilməklə onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahəsi 30 kvadratmetrədək olduqda əmlak vergisi hesablanmır.

# Yeni anlayışlar

**Vergi Məcəlləsinə dəyişikliklərdə bir sıra yeni anlayışlarla tanış oluruq. «Elektron kabinet», «məcburi nişanlanma», «iqtisadi maraqlar mərkəzi», «KOB klaster şirkəti», «startap» və s. kimi anlayışlara tez-tez rast gəlinir. «Deloitte-Azerbaijan» nın «Vergi xəbərləri» adlı bülletenində Vergi Məcəlləsindəki dəyişikliklər və məcəlləyə yeni daxil olan anlayışlar belə izah edilir.**

### Dividend nədir?

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dividend - hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş hesab olunurdu. Yeni əlavələrə əsasən, aşağıdakılar da dividend hesab ediləcəkdir:

- hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi,
- səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər şəkildə edilən ödəmələr.

### Azərbaycan mənbəyindən gəlir

Azərbaycan mənbəyindən gəlir - güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərdir.

Dəyişikliyə görə, Azərbaycan mənbəyindən gəlir - güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş şəxslərə, o cümlədən digər ölkələrdə olan filial və ya nümayəndəliklərinə, güzəştli vergi tutulan ölkələrdə olan bank hesablarına rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlər hesab olunacaq. Alınmış borclar üzrə qaytarılan borcun əsas məbləği (faizlər nəzərə alınmadan) Azərbaycan mənbəyindən gəlirə aid edilmir. Bu müddəalar rezident banklar tərəfindən açılan müxbir hesablara aid edilməyəcək.

### Anlayışlar

Yeni əlavələrə görə, «elektron kabinet» - vergi orqanı tərəfindən verilən kod-parol ilə daxil olmağa imkan verən, vergi ödəyicisi ilə vergi orqanı arasında qarşılıqlı məlumat mübadiləsini təmin edən fərdi elektron səhifə deməkdir.

Məcburi nişanlanma - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş malların idxalı, istehsalı, satışı və dövriyyəsinə vergi nəzarətinin həyata keçirilməsi məqsədilə həmin mallara tətbiq edilən markaların üzərində yerləşdirilən məcburi nişanlanma kodu və digər qoruyucu elementlərdir. Aksiz markası - aksizli malların idxalı, istehsalı, satışı və dövriyyəsinə vergi nəzarətinin həyata keçirilməsi məqsədilə həmin mallara kağız daşıyıcıda yapışdırılan nəzarət markasına deyilir.

Dəyişikliklərdə, həmçinin, «iqtisadi maraqlar mərkəzi» ifadəsi yer alıb ki, bu da vergi ödəyicisinin əsas nəzarət orqanlarının yerləşdiyi yerdən asılı olmayaraq, digər təsərrüfat subyektləri (obyektləri), o cümlədən istehsal sahələri ilə müqayisədə vergi ödəyicisinin fəaliyyəti üzrə gəlirlərinin formalaşmasında daha çox iştirak edən təsərrüfat subyektinin (obyektinin), o cümlədən istehsal sahəsinin yerləşdiyi yer; İnnovasiya fəaliyyəti - iqtisadi və ya sosial səmərə əldə etmək məqsədilə elmi-tədqiqat və təcrübə-konstruktor işləri və onların nəticələrinin tətbiqi əsasında yeni və ya təkmilləşdirilmiş mal (iş, xidmət), texnoloji proses yaradılmasına və yerinə yetirilməsinə istiqamətlənmiş fəaliyyəti nəzərdə tutur.

KOB klaster şirkəti - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) KOB klaster şirkətinin şəhadətnaməsi verildiyi hüquqi şəxsə deyilir.

İnnovativ təşəbbüsə əsaslanaraq həyata keçirilən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən «Startap» şəhadətnaməsi verilmiş şəxslərin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti startap adlanır.

**FƏXRİYYƏ**

# Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyində görüş

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri Vergi Məcəlləsinə, «Sosial sığorta haqqında» və «İşsizlikdən sığorta haqqında» Azərbaycan Respublikası qanunlarına əlavə və dəyişikliklərlə bağlı yerli vergi orqanları əməkdaşlarına ətraflı məlumat verib, maarifləndirmə işləri aparılıb.

Azərbaycanın vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət departamentinin baş direktoru Elçin Məmmədov bildirib ki, ölkə Prezidenti İlham Əliyev vergi orqanları qarşısında «kölgə iqtisadiyyatı»nın səviyyəsinin azaldılması, şəffaflığın və bərabərliyin təmin edilməsi, vergidən yayınma hallarına son qoyulması, bu sahədə qətiyyətli tədbirlərin həyata keçirilməsi, vergilərin tam şəkildə dövlət büdcəsinə ödənilməsi və vergi mədəniyyətinin yüksəldilməsi kimi mühüm tapşırıqlar qoyub. Vergilər Nazirliyi bu problemlərin həlli istiqamətində genişmiqyaslı vergi islahatlarına başlayıb.

Vergi siyasəti departamentinin idarə direktoru Əvəz Quliyev Vergi Məcəlləsinə dəyişikliklərin əsas istiqamətlərini geniş izah edib. Vergilər Nazirliyi yanında Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamentinin əməkdaşı Nicat İsaqov isə «Sosial sığorta haqqında» və «İşsizlikdən sığorta haqqında» Azərbaycan Respublikası qanunlarına əlavə və dəyişikliklərlə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda dəyişikliklərin əsas istiqamətləri ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb, vergi əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb.

# Nağdsız hesablaşmalar stimullaşdırılır

## Vergi Məcəlləsinə dəyişikliklərdə nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı güzəştlər nəzərdə tutulub

### Yeni azadolmalar

Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (vəya) ictima iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər fərdi sahibkar tərəfindən büdcəyə ödənilməli olan mənfəət (gəlir) vergisinin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi gəlirdəki xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır. Bu güzəştin alınması hüququ müəyyən edilərkən vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır.

Gəlirlərin və xərclərin uçotunu qanunvericiliyə uyğun aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan hüquqi şəxslərin dividend gəlirləri mənfəət vergisindən azad edilir.

Daha bir yeniliyə əsasən, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizdən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə mənfəət vergisindən azad edilir. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir və paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslərə bu azadolma tətbiq edilmir.

### İqtisadçı rəyi

İqtisadçı ekspert Rəşad Əliyev bildirir ki, dövlətin müəyyən etdiyi strateji hədəflərdən biri nağdsız hesablaşmaların xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artırılmasıdır. Son illərdə sahibkar fiziki və hüquqi şəxslər arasında hesablaşmalarda nağdsız əməliyyatların xüsusi çəkisi xeyli artıb. Buna qanunvericilikdə birbaşa və dolayı tələblərin qoyulması ilə nail olunsa da, hökumət bu sahədə əlavə stimullaşdırıcı addımlar atmaqla daha yüksək nəticənin əldə olunmasına çalışır. Bu addımların həm nağdsız qaydada ödənişi həyata keçirənlərə, həm də ödənişi qəbul edənlərə nisbətdə tətbiq edilməsi nəzərdə tutulurdu: «Bu il Vergi Məcəlləsində edilmiş dəyişikliklərdə bu cür stimullaşdırıcı addımları görürük. Stimullaşdırıcı alət kimi bir sıra vergi güzəştləri tətbiq ediləcək. Məlum məsələdir ki, sadə vətəndaşlar nağdsız ödənişlərin bir hissəsini POS-terminallar vasitəsilə həyata keçirirlər. Bu cür ödənişlərin az olmasının əsas səbələrindən biri kimi bir çox ticarət və iaşə obyektlərinin plastik kartlarla ödəniş qəbul etməmələridir. Verilmiş güzəştlər POS-terminal vasitəsilə ödənişi qəbul edənlərə aid edilir. Məqsəd həmin şəxslər üçün stimulun yaradılması, nağdsız ödəmələrin ən çox «axsadığı» sahədə - pərakəndə ticarət və ictimai iaşə sahələrində nağdsız ödəmələrin həcmini artırmaq, sahibkarları POS-terminallar tətbiq etməyə stimullaşdırmaqdır».

Qeyd olunub ki, dəyişikliyin nəticəsi kimi pərakəndə ticarət və ictimai iaşə sahələrində POS-terminalların tətbiqinin, nağdsız ödəmələrin həcm və dövriyyəsinin artması gözlənilir ki, bu da büdcə daxilolmalarının artımında əksini tapacaq və işgüzar dairələr tərəfindən dəstəklənəcək: «Lakin POS-terminallara görə banklara ödənilən komissiya haqları ilə bağlı sahibkarların rastlaşdıqları bir sıra texniki və maliyyə məsələlərinin həlli tələb olunur. Bu, dəyişiklikdən sonra gözlənilən səmərənin artırılması, nağdsız hesablaşmaların stimullaşdırılması və genişləndirilməsi, sahibkarlıq subyektlərinin dövriyyəsinin leqallaşdırılması, uçot sistemində şəffaflığın təmin olunması üçün vacibdir».

**F. İKRAMQIZI**

# Azərbaycan «Paying Taxes 2019» vergitutma reytinqində 28-ci yerdədir

Bu barədə dünyanın aparıcı konsaltinq şirkətləri şəbəkəsi olan «PwC»nin mütəxəssislərinin Dünya Bankı ilə birgə apardıqları araşdırmada qeyd olunur. Araşdırmaya əsasən, Azərbaycanın ümumi vergi dərəcəsi 40,8 faiz təşkil edir ki, bu da şirkətin gəlirində vergi və ödənişlərin xüsusi çəkisi deməkdir.

«Paying Taxes 2019» reytinqində Rusiya Federasiyası 53-cü, Qazaxıstan 56-cı, Özbəkistan 64-cü, Ermənistan 82-ci, Tacikistan 136-cı, Qırğızıstan isə 150-ci pillədə qərarlaşıb. Qeyd edək ki, araşdırma vergi sahəsində bir sıra göstəriciləri nəzərə alır:

- il ərzində ödənişlərin sayı;
- vergi qanunvericiliyinə uyğunlaşma üçün lazım olan vaxt;
- ƏDV sisteminin tətbiqi və s.

Xatırladaq ki, ötən il Azərbaycan bu reytinqdə 35-ci pillədə qərarlaşmışdı.

# Əsas məqsəd istehlakçıların vergi uçotunda iştirakını təmin etməkdir

**Vergi Məcəlləsinə dəyişikliklərdə pərakəndə ticarət və ictimai iaşə sektorunun dövriyyəsinin rəsmiləşdirilməsinə ictimai nəzarətin gücləndirilməsi və bu işdə istehlakçıların stimullaşdırılması məqsədilə onların ƏDV kimi xərclədikləri vəsaitlərin bir hissəsinin geri qaytarılması nəzərdə tutulur. İstehlakçılar tərəfindən pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə (neft və qaz məhsulları istisna olmaqla) ödənilmiş ƏDV-nin nağdsız ödənişlərdə 15 faizi, nağd ödənişlərdə isə 10 faizi nəzarət-kassa aparatının çeki əsasında istehlakçılara geri qaytarılacaq. Bu qaydaların tətbiqi ilə bağlı əlavə olaraq prosedurları özündə əks etdirən qanunvericilik aktı qəbul olunacaq. İstehlakçı fiziki şəxslərin bu qaydada stimullaşdırılması şəffaflığın təmin edilməsinə müsbət təsir göstərəcək.**

Ödənilmiş ƏDV-nin müəyyən olunmuş hissəsinin qaytarılması zamanı təqdim edilən nəzarət-kassa aparatının çeki Vergi Məcəlləsinin 50.8-ci maddəsinin tələblərinə cavab verməlidir. Nəzarət-kassa aparatının çeklərində vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulmasının tarixi və saatı, təsərrüfat subyektinin adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan, malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, nəzarət-kassa aparatının markası və zavod nömrəsi, nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti), çekin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun elektron informasiya sisteminə ötürülüb-ötürülməməsinə dair qeyd, malın sürətli məlumat kodu (Quick Reponse Code) olmalıdır.

Bakı Hesabat Mərkəzinin direktoru, audit üzrə mütəxəssis Mehdi Babayev bildirib ki, Vergi Məcəlləsinə edilmiş 165.5-ci, 102.1.24-cü, 106.9-cu maddələrin tətbiqinin bir neçə stimullaşdırıcı funksiyaları vardır. Misal üçün göstərmək olar ki, istehlakçı qismində alıcı şəxsin aldığı mallara və ya qəbul etdiyi ictimai iaşə xidmətinə görə NKA çeki almaq şərti ilə ödədiyi 1.000 manatın tərkibində 152,54 ((1.000/1,18) x 0,18) manat ƏDV vardır. Əgər 1.000 manatın hamısı nağdsız qaydada ödənilmişdirsə, 152,54 manatın 15 faizi, yəni 22,88 manatı, nağd qaydada ödənilmişdirsə, 152,54 manatın 10 faizi, yəni 15,25 manatı NKA çeklərinin sahibinə (alıcı olmuş şəxsə) geri qaytarılacaqdır.

Mütəxəssisin fikrincə, burada istehlakçıların maarifləndirilməsinə xüsusi əhəmiyyət verilməlidir: «Bu proseslərə qoşulmaq istəyən istehlakçılar müvafiq mal və xidmətləri (neft və qaz məhsulları istisna olmaqla) ƏDV ödəyicisi olan ticarət və ya ictimai iaşə obyektindən almalıdırlar. Alıcı bunun üçün obyektə daxil olduqda həmin obyektin ƏDV ödəyicisi olub-olmadığı barədə soruşmalı olacaqdır. ƏDV ödəyicisi olmayan satıcı müştərinin maliyyə bilgilərinin az olmasını hiss etdikdə alıcıya bu barədə yalan məlumat verə, hətta sadələşdirilmiş vergi ödəyən pərakəndə ticarət obyektləri bu məsələdə özlərini hüquqları pozulmuş kimi də hesab edə bilərlər. Sadələşdirilmiş vergi ödəyicisi olan ictimai iaşə və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan obyektlərdə dövriyyələrin azalması müşahidə oluna bilər. İnsanlar daha çox ƏDV ödəyicisi olan mağazalara və obyektlərə gedəcəklər. Daha bir həssas məsələ Məcəllənin 50.8-ci maddəsinin tələblərinə cavab verməli olan NKA aparatlarının bütün obyektlərdə quraşdırılması ilə bağlıdır. ƏDV ödəyicisi olan ticarət obyektinin texniki tələblərə cavab verən kassa aparatı olmadığı halda istehlakçıların ödədikləri ƏDV-nin müfaviq hissəsinin geri qaytarılması üçün müraciətləri qəbul edilməyəcəkdir».

Daha bir maraqlı məqam insanların başqalarına məxsus NKA çeklərini toplaya bilməsi ehtimalı ilə bağlıdır. Belə «fürsətdən» faydalanmaq istəyən şəxslərə münasibətin necə olacağı da sual doğuran məsələlərdəndir.

İqtisadçı Elman Sadıqovun fikrincə, nağdsız ödənişlərin stimullaşdırılması bütün dünyada tətbiq olunan bir məsələdir: «Məsələn, Türkiyə təcrübəsinə nəzər salsaq, görərik ki, 1970-80-ci illərdə bu ölkədə ödəniş terminalları vasitəsilə heç kim əməliyyat aparmaq istəmirdi. İnsanlar ödəniş kartlarını qəbul etməkdən narahat olur, çəkinirdilər. Bunu aradan qaldırmaq üçün ölkədə bir çox tədbirlər həyata keçirildi. Banklar nağdsız hesabatları stimullaşdırmaq, müştəri cəlb etmək üçün taksit (hissə-hissə ödəmək) kartları müştərilərini nağdsız ödənişlərə həvəsləndirirdilər. Növbəti mərhələlərdə də müəyyən güzəştlər oldu, dövlət tərəfindən bir sıra təşviqedici addımlar atıldı».

E.Sadıqov bildirib ki, Azərbaycanda da hazırda böyük POS-terminal infrastrukturu var: «Amma əsas məsələ mövcud bazanı, infrastrukturu işlək hala gətirməkdir. Bəzi ticarət mərkəzlərində, ərzaq mağazalarında, pərakəndə satış nöqtələrində POS-terminallardan istifadə, onların təşviqi o qədər də yüksək səviyyədə deyil. «Binə» və «Sədərək» kimi bir sıra iri ticarət mərkəzlərinin nağdsız ödənişə cəlb edilməsi üçün POS-terminalların quraşdırılması zəruridir. Biz ƏDV-də güzəştə getməklə ƏDV ödəyicilərinin özünü təşviq etmiş oluruq və bundan sonra ƏDV ödəyicisi olmayan sadələşdirilmiş vergi ödəyiciləri də artıq ƏDV-yə keçib-keçməmək haqqında düşünəcəklər. Beləliklə, rəqabət güclənmiş olacaq.

Yəni bu addımın üç əsas məqsədi var ki, onlardan birincisi insanların nağdsız ödənişlərə cəlb edilməsi, ikincisi dövriyyənin rəsmiləşdirilməsi və «kölgə iqtisadiyyatı»nın payının kiçildilməsi, üçüncüsü isə sahibkarlar tərəfindən ƏDV ödənişinin təşviq edilməsi və ticarətlə məşğul olanların hamısının ƏDV üzrə qeydiyyatdan keçməyə yönləndirilməsidir. Qeyd edim ki, dövlət bu addımı atdıqdan sonra plastik kartların, debit-kredit kartlarının satışı artacaq, banklar özləri də müştərilərin taksit kartlarının artmasına stimul verəcəklər».

Qarşıya qoyulan hədəflər:

- insanların nağdsız ödənişlərə cəlb edilməsi;
- dövriyyənin rəsmiləşdirilməsi və «kölgə iqtisadiyyatı»nın payının kiçildilməsi;
- sahibkarların ƏDV ödənişinin təşviq edilməsidir

**Fəxriyyə İKRAMQIZI**

# Vergi islahatları ilinin əsas hədəfləri yerinə yetirildi

## 2018-ci il vergi sahəsində köklü dəyişikliklər ili kimi yadda qaldı

Yola saldığımız 2018-ci il vergi sahəsində geniş islahatlar paketinin hazırlanması və vergi qanunvericiliyinə mühüm dəyişikliklərin edilməsi ilə yadda qalır. Bu ili vergi sistemində keçid ili kimi müəyyən edən Vergilər Nazirliyi tərəfindən cəmiyyətin inkişaf faktoru ilə şərtləndirilən və aparıcı dünya praktikası ilə uzlaşdırılan yeni bir vergi sisteminə keçid istiqamətində müvafiq addımlar atıldı.

Yeni islahatlar kursuna əsasən, vergi sistemində idarəetmə prinsiplərinin yenidən təşkili və vergi inzibatçılığının təkmilləşdirilməsi, müasir innovativ texnologiyaların tətbiq olunması, şəffaflığın təmin edilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi ilə bağlı əhatəli tədbirlər həyata keçirilib. Vergi qanunvericiliyində mövcud olan bəzi boşluqların aradan qaldırılması, müasir çağırışların tələbindən irəli gələn bir sıra məsələlərin həlli məqsədilə müxtəlif dövlət qurumları və ictimai təşkilatların, assosiasiyaların, sahibkarların rəy və təklifləri nəzərə alınmaqla Vergi Məcəlləsinin yeni redaksiyası hazırlanıb.

### İslahatların başlanğıcı

2018-ci il fevralın 18-də «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda keçirilən konfransda vergi sistemindəki vəziyyət və onun perspektiv inkişaf istiqamətləri, ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin daha da yaxşılaşdırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə işgüzar dairələrlə fikir mübadiləsi aparıldı. Vergilər naziri Mikayıl Cabbarov forumda vergi xidmətinin fəaliyyətində yeni yanaşmalar və vergi xidmətinin qarşısında duran vəzifələrin icrası, vergi əməkdaşlarının fəaliyyətində yeni tələblər, vergi orqanlarına etimadın yüksəldilməsi və digər məsələlərlə bağlı çıxış etdi. Bununla da il ərzində həyata keçiriləcək tədbirlərin anonsu verildi. Vergilər Nazirliyi sahibkarlara müraciət ünvanlayaraq, onları yeni iqtisadi şəraitdə fəal və faydalı əməkdaşlığa, şəffaflığa dəvət etdi. Nazirlik ödəyicilərə keyfiyyətli xidmətlər, qarşılıqlı etimad təklif edərək, sahibkarların bütün problemlərini dinləməyə, qanuni tələblərinin həllinə kömək göstərməyə hazır olduğunu bəyan etdi.

### E-qaimələrin tətbiqi

Vergi qanunvericiliyinin müddəalarına əsasən, 2018-ci ilin yanvar ayından elektron qaimənin (e-qaimə) tətbiqinə başlanıldı. Bu siyasətə uyğun olaraq e-qaimə və e-vergi hesab-fakturasının (e-vhf) tərtib edilməsində mövcud olan müəyyən mürəkkəbliyin aradan qaldırılması istiqamətində işlər görüldü. Nazirliyin informasiya sisteminin təkmilləşdirilməsi, xüsusən də vergi ödəyiciləri üçün istifadəçi interfeyslərinin dizaynına xüsusi diqqət yetirilməsi və e-qaimə və e-vhf-nin göndərilməsinin sadələşdirilməsi üçün təhlil prosesinə başlanıldı.

### Struktur islahatları

2018-ci ildə vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının əlverişli biznes mühitinin formalaşdırılmasına yönəldilməsi, korrupsiya və digər neqativ hallarla mübarizə sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə aparılan struktur islahatlarının fəlsəfəsi vergi orqanlarının əsas funksiyasının fiskal nəzarətdən vergi ödəyicilərinə xidmət prinsipinə keçirilməsi oldu.

Nazirliyin aparatının yeni strukturunda Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması departamenti, Vergi auditi, İqtisadi təhlil və ekspertiza, Vergi siyasəti, Vergi öhdəliklərinin icrasına nəzarət, Vergi ödəyicilərinə xidmət, Dövlət qeydiyyatı və uçota nəzarət, İkitərəfli və çoxtərəfli sazişlərin icrasına nəzarət, Hüquq, Yerli qurumların fəaliyyətinin əlaqələndirilməsi, Rəqəmsal vergi inzibatçılığı, İnsan resursları, Maliyyə, Daxili təhlükəsizlik departamentləri, habelə Media və Kommunikasiya Mərkəzi daxil edildi. Struktur vahidlərinin funksional fəaliyyəti və vəzifələrinin bölgüsündə də dəyişikliklər aparıldı. Yeni strukturlar iyulun 2-dən fəaliyyətə başladı.

### Müasir rəqəmsal texnologiyaların tətbiqi

Vergilər Nazirliyinin fəaliyyətində rəqəmsallaşma və elektron xidmətlərin tətbiqinin genişləndirilməsi əsas hədəflərdəndir. Elektron xidmətlərin sayının artırılması, xidmətlərin mobil cihazlar vasitəsilə əldə edilməsi imkanlarının yaradılması, nazirliyin veb portalının funksionallığının genişləndirilməsi istiqamətində zəruri işlər həyata keçirildi. Rəqəmsallaşmanın təkcə vergi ödəyicilərinə göstərilən xidmətlərə deyil, eyni zamanda təhlillərin və auditin aparılması, kameral yoxlamalar prosesində də tətbiqi, bu prosesin süni intellekt üzərində qurulan proqramlardan, müasir informasiya texnologiyalarından istifadə etməklə həyata keçirilməsi nəzərdə tutulur.

Yeni yaradılmış Rəqəmsal vergi inzibatçılığı departamenti üçün elektron vergi inzibatçılığının tətbiqi, onun texnoloji təminatının daha yüksək səviyyəyə çatdırılması, məsafədən vergi xidmətlərinin göstərilməsi, operativ informasiya mübadiləsinin təmin edilməsi, informasiya təhlükəsizliyi sisteminin idarə olunması, vergi ödəyicilərinə aid məlumatların məxfiliyinin tam qorunması əsas fəaliyyət istiqamətləri kimi müəyyən edilib.

> Xarici biznesin fəaliyyətini stimullaşdırmaq məqsədilə qeyri-rezidentlərə ilk dəfə «ASAN imza» sertifikatı verildi

### Elektron audit - şəffaf yoxlama metodu

Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətdə insan faktorunun rolunu minimuma endirmək məqsədilə vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin avtomatlaşdırılması ilə yanaşı, vergi nəzarəti proseslərinin avtomatlaşdırılmasını da əsas prioritetlərdən biri kimi müəyyən edib. Bu məqsədlə yeni yaradılmış Rəqəmsal vergi inzibatçılığı departamenti elektron auditin (e-audit) effektiv və səmərəli formada tətbiqi üzərində araşdırmalar aparır. Görülən işlər çərçivəsində yeni məlumat bazasının yaradılması, vergi ödəyiciləri haqqında məlumatların ümumi bazaya inteqrasiyası, bu sahədə qanunvericiliyin və prosedurların təkmilləşdirilməsi, yeni texnologiyanın tətbiqi və süni intellekt modulları əsasında informasiya sisteminin qurulması nəzərdə tutulur.

### İdxal-ixraca birgə nəzarət sistemi

Dövlət başçısının «Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» 20 aprel 2018-ci il tarixli sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə Vergilər Nazirliyində yeni struktur - İdxal-ixrac əməliyyatları üzrə nəzarət departamenti yaradıldı. Yeni qurum Dövlət Gömrük Komitəsi ilə birgə maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinə dəstək verilməsi, idxal-ixrac əməliyyatlarına nəzarət sistemini həyata keçirir.

### Vergi bəyannamələrinin və hesabatların formalarına dəyişikliklər

Vergi sistemində həyata keçirilən islahatların əsas hədəflərindən biri iqtisadi artımı sürətləndirmək üçün orta və uzunmüddətli dövrdə vergi sahəsində səmərəliliyin artırılması, büdcənin dayanıqlığının təmin edilməsi məqsədilə büdcə gəlirlərinin əldə olunması, sahibkarlığın stimullaşdırılması və investisiyaların təşviqidir. Bu siyasətə uyğun olaraq, həmçinin «Dövlət rüsumu haqqında» Qanuna edilmiş dəyişikliklərin tələblərindən irəli gələrək, vergi bəyannamələrinin və hesabatların formalarında dəyişikliklər edildi. Vergi bəyannamələrinə və onların əlavələrinə edilmiş dəyişikliklər vergi inzibatçılığının təkmilləşdirilməsinə və bəyannamə formalarının sadələşdirilməsinə, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının düzgün müəyyənləşdirilməsinə, bəyannamələr vasitəsilə əldə olunan məlumatların dəqiqləşdirilməsi hesabına vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azaldılmasına xidmət edir.

### Yeni Tvinninq layihəsi

Nazirlik Avropa İttifaqı ilə əməkdaşlığı davam etdirərək aprelin 17-də yeni layihənin - «Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsinə başladı. Yeni layihə transfer qiymətləndirməsinə dair qanunvericiliyin və praktiki məsələlərin inzibatçılığı, habelə transfer qiymətləndirməsi üzrə auditin tətbiqi və icra olunması sahələrində Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənməyə və gələcəkdə mövcud qaydaların daha da təkmilləşdirilməsinə xidmət edəcək. Layihənin məqsədi transfer qiymətləndirməsi sahəsində audit prosesləri üçün effektiv resursların yaradılması və səmərəli auditin tətbiqi istiqamətində Azərbaycanın Vergilər Nazirliyinə dəstək verməkdir. Layihə üzrə 3 əsas nəticənin əldə olunması qarşıya qoyulub. Bu məqsədlərə:

- transfer qiymətləndirməsi sahəsində qanunvericiliyin Avropa İttifaqı standartlarına uyğunlaşdırılması;
- transfer qiymətləndirməsi üzrə inzibati nəzarət mexanizmlərinin yaradılması;
- bu sahədə Vergilər Nazirliyinin institusional potensialının artırılması

daxildir.

> «Doing Business 2019» hesabatında «Biznesə başlama» və «Vergilərin ödənişi» indeksi üzrə mövqeyimiz yüksəldi

### Biznes icmaları və vergi ödəyiciləri ilə görüşlər

2018-ci ildə Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri paytaxt və regionlarda vergi ödəyiciləri ilə davamlı görüşlər keçiriblər. Bu cür tədbirlər nazirliyin bütün ərazi vergi orqanlarında, Milli Gəlirlər Departamenti, Bakı şəhəri Lokal Gəlirlər Departamenti və Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamentində təşkil olunub. Biznes icmaları ilə əməkdaşlığa mühüm önəm verən Vergilər Nazirliyi il ərzində Azərbaycanda Amerika Ticarət Palatası, Alman-Azərbaycan Xarici Ticarət Palatasına üzv olan şirkətlərin nümayəndələrinin iştirakı ilə görüşlər təşkil edərək vergi qanunvericiliyi, biznes mühitinin yaxşılaşdırılması və şəffaflıq məsələlərini müzakirə edib, iş adamlarını maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparıb.

### Rəqəmsal Ticarət Qovşağı

2018-ci ildə Azərbaycanda elektron ticarətin innovativ platforması olan və e-kommersiya sahəsində dövlət-özəl sektor əməkdaşlığı üçün ən yaxşı model hesab edilən Rəqəmsal Ticarət Qovşağının (RTQ) fəaliyyətinin genişləndirilməsi istiqamətində zəruri addımlar atıldı. RTQ-nin yaradılmasında iştirakçı dövlət orqanlarından olan Vergilər Nazirliyi tərəfindən xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınması istiqamətində mühüm işlər görüldü. Əcnəbilərə elektron rezidentliyin verilməsi üçün texniki baza formalaşdırıldı və qanunvericilik aktlarının tələbinə uyğun olaraq proqram təminatı hazırlandı. Oktyabrın 24-də qeyri-rezidentlərə ilk dəfə «ASAN imza» (elektron və mobil rezidentlik) təqdim olundu. Əcnəbi investorlara «ASAN imza»nın verilməsinin ölkəmizdə xarici investisiyalı müəssisələrin sayının və iqtisadiyyatın cəlbediciliyinin və xarici investisiyalı hüquqi şəxslərin sayının və coğrafiyasının artımı baxımından mühüm rol oynayır.

### Strateji yol xəritələri üzrə görülmüş işlər

«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»nə uyğun olaraq Vergilər Nazirliyi qarşısında qoyulmuş tapşırıqların icrası davam etdirildi. 5 istiqamət üzrə əsas icraçı, 9 strateji yol xəritəsində 34 istiqamətdə digər icraçı qismində müəyyən edilən nazirlik tərəfindən hazırlanmış tədbirlər planının icrasına əsasən, kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi, biznesin asanlaşdırılması, yoxlamaların təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması, səmərəli vergi sisteminin təşviq edilməsi, xarici investisiya strategiyasının həyata keçirilməsi, statistika infrastrukturunun təkmilləşdirilməsi istiqamətində işlər görüldü. Nazirliyin təqdim etdiyi layihələrə əsasən, qanunvericiliyə müvafiq dəyişikliklər edildi.

### Vergi islahatları beynəlxalq hesabatlarda

Azərbaycanda mütərəqqi beynəlxalq təcrübənin tətbiqi sayəsində vergi inzibatçılığının təkmilləşdirilməsi, biznesin fəaliyyətinin yaxşılaşmasına şərait yaradan islahatların aparılması nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında yüksək qiymətləndirildi. Dünya Bankının hazırladığı biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni əks etdirən «Doing Business 2019» hesabatında iki indikator - «Biznesə başlama» (Starting business) və «Vergilərin ödənişi» (Paying taxes) birbaşa vergi məsələlərinə aiddir. Azərbaycan hər iki göstərici üzrə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırdı, «Biznesə başlama» üzrə son bir ildə 18-ci yerdən 9-cu yerə, «Vergilərin ödənilməsi» indikatoru üzrə isə 35-ci yerdən 28-ci yerə yüksəldi. «Biznesə başlama» prosedurları üzrə respublikamız əksər region ölkələrini üstələyir. Azərbaycanda bu göstərici üzrə prosedurların sayı cəmi 2 olduğu halda, Avropa və Mərkəzi Asiya ölkələrində orta hesabla 5, OECD ölkələrində isə 4,8 təşkil edir. Vaxt (gün) göstəricisi Azərbaycanda 3, Avropa və Mərkəzi Asiya ölkələrində 12,1; OECD ölkələrində 9,2-dir. Xərc indeksi üzrə (adambaşına düşən gəlirin faizi) Azərbaycanın əmsalı 1,3; Avropa və Mərkəzi Asiya ölkələrinin əmsalı 5,3; OECD ölkələrinin əmsalı 3,4-dür. Minimum kapital (adambaşına düşən gəlirin faizi) üzrə respublikamız 0 əmsalına, Avropa və Mərkəzi Asiya ölkələri 5,8; OECD ölkələri 8,8 əmsalına malikdir.

Hesabatın vergiyə aid digər göstəricisi olan «Vergilərin ödənilməsi» indeksi üzrə respublikamız MDB məkanında ilk yerlərdən birini tutur.

### Vergi Məcəlləsinə əlavə və dəyişikliklər

2018-ci ildə vergi sahəsində qanunvericiliyin daha əhatəli və geniş şəkildə təkmilləşdirilməsi köklü dəyişikliklər kimi qiymətləndirilə bilər. Milli Məclisin noyabrın 30-da qəbul etdiyi «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanuna əsasən, Vergi Məcəlləsinə 250-dən artıq dəyişiklik edilib. Dəyişikliklər beş əsas istiqaməti əhatə edir:

- sahibkarlığın dəstəklənməsi;
- vergidən yayınmanın və «kölgə iqtisadiyyatı»nın miqyasının azaldılması;
- vergitutma bazasının genişləndirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi.

Sonda onu da qeyd edək ki, Prezident İlham Əliyevin dekabrın 20-də imzaladığı fərmana əsasən, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu» təsdiq olundu.

> Vergilər Nazirliyi sahibkarları yeni iqtisadi şəraitdə fəal və faydalı əməkdaşlığa, şəffaflığa dəvət edir

**Elbrus CƏFƏRLİ**

# Əmək müqaviləsi ilə işləyənlərin vergi və sığorta öhdəliyi

**Vergi Məcəlləsində edilmiş dəyişikliklər arasında vergi və sığorta qanunvericiliyi ilə bağlı maddələr də var. Ən çox maraq kəsb edən məsələlərdən biri əmək müqaviləsi ilə muzdla işləyən fiziki şəxslərin gəlir vergisi və sığorta ödənişlərindəki dəyişikliklərdir.**

### Mütəxəssisin fikrincə...

Vergi üzrə mütəxəssis Emin Səttarov bildirib ki, fiziki şəxslərin gəlir vergilərində dəyişiklikləri iki hissəyə bölmək olar: «Birincisi, növbəti ildən gəlir vergisinə cəlb edilməyən hissə 173 manatdan 200 manata qaldırılır: bu, dövlət və qeyri-dövlət, neft və qeyri-neft bölməsindən asılı olmayaraq, bütün sahələrdə çalışanlara şamil olunacaq. İkincisi, gələn ildən qeyri-neft qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət bölməsində muzdla işləyənlər (yəni əmək müqaviləsi ilə çalışanlar) aylıq qazancları 8.000 manata qədər olarsa, gəlir vergisi ödəməkdən azad edilir. 8.000 manatdan yuxarı olduqda isə 8.000 manatdan çox olan məbləğin 14 faizini ödəyəcək. Bu dəyişiklik dövlət bölməsinə şamil olunmur və növbəti 7 ildə qüvvədə olacaq».

Qeyd olunub ki, muzdla işləyənlərin (əmək müqaviləsi ilə çalışanların ) sosial-sığorta haqqı - aylıq gəlirləri 200 manata qədər olduqda, əvvəlki kimi, işçi üçün 3 faiz, işəgötürən üçün isə 22 faiz olaraq qalır. Yalnız qeyri-neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət bölməsində çalışanların aylıq gəliri 200 manatdan çox olduqda isə işçi 6 manat və 200 manatdan çox olan məbləğin 10 faizi, işəgötürən isə 44 manat və 200 manatdan çox olan hissənin 15 faizini sosial sığorta ayırması kimi ödəyəcəkdir.

Mütəxəssis bildirib ki, bununla da sahibkarın vergi və sığorta ödənişi, işçinin isə dövlət qarşısında sosial yükü azalmış olacaq: «Gələn ildən istər fiziki şəxs, istərsə də sahibkar olsun, öz əmək münasibətlərini müqavilə ilə rəsmiləşdirsələr, qeyri-leqal əməkhaqqı sistemindən uzaq dursalar, bu, onlar üçün faydalı olacaq, əks halda, ciddi sanksiyaya məruz qala bilərlər».

### İqtisadçı rəyi...

İqtisadçı ekspert Fikrət Yusifovun sözlərinə görə, 2019-cu ilin dövlət büdcəsini həm də iqtisadi islahatlar büdcəsi adlandırmaq olar: «Büdcə zərfinə əlavə edilmiş sənədlər toplusunda növbəti ildə ölkənin vergi sistemində və digər sahələrdə əsaslı islahatların aparılması nəzərdə tutulub. Təbii ki, iş adamlarının və biznes aləminin maraqlarını yüksək səviyyədə təmin edəcək vergi islahatları ölkə iqtisadiyyatının real sektorunun inkişafında inqilabi dönüşün baş verməsinə, «kölgə iqtisadiyyatı»nın leqallaşdırılmasına hesablanıb. Hökumət biznesin və muzdla çalışanların vergi yükünü 30-35 faiz azaltmaqla büdcə gəlirlərində müəyyən azalmalara yol versə də, əvəzində qeyri-neft sektorunun sürətli inkişafına, bir sıra neqativ halların aradan qaldırılmasına çalışır və bu yolla dövlətin xəzinəsinə daxilolmaların xeyli artacağına inanır. Bir sözlə, haqqında danışdığımız islahatlar həm biznesə, həm sadə vətəndaşlara, həm də dövlətə mühüm dividendlər gətirən bir iqtisadi strategiyadır».

**Fəxriyyə İKRAMQIZI**

**Misal:** Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət bölməsində (məsələn,ticarətdə) əmək müqaviləsi ilə muzdla çalışan şəxs 500 manat maaş alırsa, o, gələn ildən gəlir vergisi ödəməkdən azad olunacaq, amma 36 manat (6 manat + 300 manatın 10 faizi), onu işə götürən isə işçiyə görə 89 manat (44 manat + 300 manatdan 15 faizi) sosial sığorta ödənişi edəcək.

# Vergilər Nazirliyinin əməkdaşları beynəlxalq konfransda iştirak ediblər

Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində IOTA, OLAF-ın iştirakı, Macarıstan Respublikasının Milli Vergi və Gömrük Administrasiyası, Macarıstan Dövlət Xidməti Universiteti və Beynəlxalq Gömrük Təşkilatının Regional Təlim Mərkəzinin təşkilatçılığı ilə «Təhlükəsizlik, xidmət və inkişaf-dövlət gəlirləri administrasiyalarının fəaliyyətində yeni istiqamətlər» mövzusunda beynəlxalq konfrans təşkil olunub. Tədbirdə Vergilər Nazirliyinin əməkdaşı Tural Babayev, nazirliyin Tədris Mərkəzinin nümayəndələri Orxan Balayev və Ziya Ağayev iştirak ediblər.

# Veteranlara ehtiram

Ömrün hər yaşı həmin yaşa uyğun əlamətdar hadisələrlə məna qazanır, yadda qalır. İstənilən fəaliyyət sahəsində uzun zaman çalışıb vaxtı çatanda istirahətə yollanmaq, təqaüdə çıxmaq da belə əlamətdar hadisələrdəndir.

Bu günlərdə 3 saylı Ərazi Vergilər İdarəsində təşkil olunmuş mərasim uzun zamandan bəri idarədə çalışan veteran əməkdaşların təqaüdə göndərilməsinə həsr edilmişdi. Tədbirdə 3 saylı Ərazi Vergilər İdarəsinin Koordinasiya bölməsinin sabiq rəhbəri Əmrah Xudayev və Vergi ödəyicilərinə xidmət şöbəsinin baş dövlət vergi müfəttişi Rəşid Şükürov bir-birinin uğurlarına sevindikləri, uğursuzluqları əl-ələ verib birgə aradan qaldırdıqları iş yoldaşlarından ayrılıb öz həyatlarının yeni mərhələsinə qədəm qoydular.

Vergi sahəsində 40 il çalışmış Əmrah Xudayev mərasimdə çıxış edərək qeyd etdi ki, müstəqil Azərbaycan Respublikasının vergi sisteminin yaranmasında iştirak etməkdən qürur duyur.

İdarənin direktoru Sarxan Məmmədov vergilər naziri Mikayıl Cabbarov və rəhbərlik etdiyi kollektiv adından veteran vergi işçilərinə təşəkkürünü bildirdi, veteranlara hədiyyələr təqdim olundu.


## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin **«195-1»** Çağrı Mərkəzinə, **ww.taxes.gov.az** və **www.asxm.gov.az** internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# İqtisadi subyektlərin rəhbərlərinin nəzərinə!

Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən iqtisadi subyektlər 2018-ci il üzrə maliyyə (mühasibat) hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:

| Sıra №-si | Məcburi audit subyektlərinin adı | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsinə əsasən. |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddəsinə əsasən. |
| 4. | Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə yaradılmış Səhmdar cəmiyyətləri, o cümlədən | Nizamnamələrinə əsasən. |
| 4.1 | «Ərzaq məhsullarının tədarükü və təchizatı» Açıq Səhmdar Cəmiyyəti («Aqrar tədarük və təchizat» Açıq Səhmdar Cəmiyyəti) | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Ərzaq məhsullarının tədarükü və təchizatı» Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin 10-cu bəndinə əsasən. |
| 4.2 | «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyəti | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin 8.7-ci bəndinə əsasən. |
| 4.3 | «Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu» Açıq Səhmdar Cəmiyyəti | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu» Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin 7.6-cı bəndinə əsasən. |
| 5. | Banklar və digər kredit təşkilatları | «Banklar haqqında» Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən. |
| 6. | Sığorta təşkilatları və cəmiyyətləri | «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsinə əsasən. |
| 7. | İnvestisiya fondları | «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı maddəsinə əsasən. |
| 8. | Maliyyə-sənaye qrupları | «Maliyyə-sənaye qrupları haqqında» Azərbaycan Respublikasının 1996-cı il 10 iyun tarixli 123-IQ saylı Qanununun 16-cı maddəsinə əsasən. |
| 9. | Fondlar və birjalar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 115.3-cü maddəsinə əsasən. |
| 10. | Qiymətli kağızların emitentləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1078-ci maddəsinə əsasən. |
| 11. | Büdcədənkənar fondlar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 115-ci maddəsinə əsasən. |
| 12. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. |
| 13. | Təbii inhisar fəaliyyəti subyektləri | «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 1-ci maddəsinə əsasən. |
| 14. | Publik hüquqi şəxslər, o cümlədən | «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ saylı Qanununa və onların nizamnamələrinə əsasən. |
| 14.1 | Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi»nin Nizamnaməsinin 8.2-ci bəndinə əsasən. |
| 14.2 | Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi»nin Nizamnaməsinin 6.4-cü bəndinə əsasən. |
| 14.3 | «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.4 | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi»nin Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.5 | Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Dövlət İnformasiya Agentliyi»nin Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.6 | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi»nin Nizamnaməsinin 8.2-ci bəndinə əsasən. |
| 14.7 | Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Enerji Məsələlərini Tənzimləmə Agentliyi»nin Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.8 | Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi»nin Nizamnaməsinin 6.4-cü bəndinə əsasən. |
| 14.9 | Azərbaycan Respublikasının Gənclər Fondu | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Gənclər Fondu»nun Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.10 | Bakı Nəqliyyat Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş «Bakı Nəqliyyat Agentliyi»nin Nizamnaməsinin 8.2-ci bəndinə əsasən. |
| 14.11 | Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxs»in Nizamnaməsinin 8.4-cü bəndinə əsasən. |
| 14.12 | Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi»nin Nizamnaməsinin 9.4-cü bəndinə əsasən. |
| 14.13 | Azərbaycan Diasporuna Dəstək Fondu | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Diasporuna Dəstək Fondu»nun Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.14 | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti»nin Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.15 | Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi»nin Nizamnaməsinin 7.4-cü bəndinə əsasən. |
| 14.16 | Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu»nun Nizamnaməsinin 9.5-ci bəndinə əsasən. |
| 14.17 | Dənizkənarı Bulvar İdarəsi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş «Dənizkənarı Bulvar İdarəsi»nin Nizamnaməsinin 7.5-ci bəndinə əsasən. |
| 15. | Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası»nın Nizamnaməsinin 7.7-ci bəndinə əsasən. |
| 16. | Siyasi Partiyalar | «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsinə əsasən. |
| 17. | Bələdiyyələr və bələdiyyə müəssisələri | «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununun 10,13-cü maddələrinə, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının 2002-ci il 2 iyul tarixli 358-IIQ saylı Qanununun 11.14, 39.1-ci maddələrinə əsasən. |
| 18. | Kənd təsərrüfatı kooperativləri | «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli Qanununun 5.4-cü maddəsinə əsasən. |

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır. İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz (http://www.audit.gov.az).

Əziz dostlar, gəlin hər birimiz ölkəmizdə iqtisadiyyatın inkişafında mühüm əhəmiyyət kəsb edən maliyyə şəffaflığının həyata keçirilməsində yaxından iştirak edək.

**Azərbaycan Respublikasının Auditorlar Palatası**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# İspaniya rəqəmsal verginin tətbiqində israr edir

İspaniya hökuməti Avropa Komissiyasının müvəqqəti rəqəmsal vergi təklifinə uyğun olaraq rəqəmsal xidmətlər üçün vergi tətbiq olunması barədə təklif üzərində işlərini davam etdirəcək. İrəli sürülən təklifə əsasən, satış dövriyyəsi dünya üzrə 750 milyon, İspaniya üzrə isə 3 milyon avrodan artıq olan şirkətlərin göstərdikləri bir sıra rəqəmsal xidmətlər üçün 3 faizlik vergi tutulmalıdır. İnternet reklamlarından, rəqəmsal vasitəçilik və broker xidmətlərindən, eləcə də şəxsi göstəricilərdən gələn gəlirlər də qanunun tətbiq sferasına aid edilir.

Bu təklif azlıqda qalan siyasi qüvvələrdən ibarət sosialist hökuməti və "Podemos partiyası ilə imzalanmış büdcə sazişinə daxil edilmişdir. Bundan başqa, büdcədə çıxılmalardan istifadənin məhdudlaşdırılması yolu ilə şirkətlərin 15 faizdən az olmayaraq effektiv korporativ vergi ödəmələrinə yönəldilmiş təklif də daxildir. İrəli sürülən təkliflərdən biri də qadın gigiyenası ləvazimatlarına tətbiq olunan 10 faizlik əlavə dəyər vergisnin dərəcəsinin azaldılaraq 4 faizə salınmasıdır.

# Vergi daxilolmaları bu il 24 faiz artıb

2018-ci ilin yanvar-noyabr ayları üzrə Rusiyanın icmal büdcəsində vergi yığımlarının həcmi 19,3 trilyon rubl (490 milyard manat) təşkil etmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 24 faiz çoxdur.

Rusiyanın Federal Vergi Xidmətinin rəhbəri Mixail Mişustin bildirmişdir ki, vergi daxilolmalarındakı yüksək artım tempi dünya bazarında neftin qiymətinin artması ilə bağlıdır: ilin ilk 11 ayı ərzində neftin hər barelinin qiyməti 51,2 dollardan 70,8 dollara yüksəlmişdi. Artımın ümumi məbləğinin təxminən yarısı neft və qaz gəlirlərinin hesabına olmuşdur. Beləliklə, mənfəət vergisində 25,3 faiz, ƏDV-də 16 faiz, fiziki şəxslərin gəlir vergisində 12 faiz, əmlak vergisində isə 12,1 faiz artım olmuşdur.




# İnternet reklamlarına vergi qoyulub

**Türkiyə qanunvericiliyində edilmiş dəyişikliyə əsasən, internetdə yayılan reklamların böyük hissəsinə yanvarın 1-dən 15 faizlik vergi tətbiq olunacaq.**

Dəyişikliklərdə göstərilir ki, xaricdə təsis edilmiş hər hansı şirkət vasitəsilə Türkiyədən reklam toplayıb bunu internet mühitində yayan şirkətlərdən 15 faizlik vergi tutulacaq. Bu isə o deməkdir ki, «Google», «Youtube», «Facebook» kimi axtarış və sosial media qurumlarına reklam verənlər hər yüz lirənin 15 lirəsini Türkiyənin vergi orqanına köçürməli olacaq.

Qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, reklamı verən Türkiyədə qeydiyyata alınmış şirkət olduqda, həmin şirkət mənfəət vergisinin və ya qurumlar vergisinin ödəyicisi ola bilər. Bu vergilərdən hər hansı birinin ödəyicisi olan şirkət xaricdə təsis edilmiş şirkətlərə reklam verdikdə yeni 15 faizlik vergini mütləq ödəməli olacaq.

Reklam ölkə daxilində təsis edilmiş şirkət vasitəsilə verildikdə isə bu vergi tətbiq olunmayacaq. Çünki ölkə daxilində təsis edilmiş şirkət öz mənfəət vergisini ödədiyi üçün əlavə vergi ödəməsi ikiqat vergitutmaya səbəb olur.

# Tramp fermerlər üçün ikinci yardım paketini təsdiqləyib

ABŞ Prezidenti Donald Tramp yaranmış «ticarət müharibəsi» şəraitində amerikalı fermerlərin fəaliyyətinin mənfi təsirlərə məruz qalmasının qarşısını almaq məqsədilə ikinci yardım paketini təsdiqlədiyini bildirmişdir. Prezident özünün «Twitter» hesabından bəyan etmişdir: «İqtisadiyyatımız hər zamankından güclüdür və biz öz fermerlərimizin yanındayıq».

ABŞ bir çox Çin mallarına yüksək gömrük vergisi qoyandan sonra Pekin rəsmi dairələri də soya paxlası başda olmaqla Amerikada yetişdirilən bəzi kənd təsərrüfatı məhsullarına əlavə gömrük vergisi qoymuşdu. D.Tramp öz ölkəsinin fermerlərini qorumaq üçün yay aylarında elan etdiyi ilk yardım paketində kənd təsərrüfatına 12 milyard vəsait ayırmışdı. Hələlik ikinci yardım paketinin məbləği haqqında dəqiq rəqəm göstərilməyib. G20 ölkələrinin Argentinada keçirilmiş son zirvə toplantısında ABŞ ilə Çin arasında "ticarət müharibəsinin üç aylığa təxirə salınması ilə bağlı razılaşma əldə edildikdən sonra Çin rəhbərliyi xoş niyyət nümayiş etdirərək ABŞ fermerlərindən 500 min ton soya paxlası almışdı.

# Belarus Rusiyanın vergi manevrlərinin təsirini azaltmaq üçün yol axtarır



Belarus Respublikası Prezidentinin mətbuat katibi Natalya Eysmont dövlət televiziyasına müsahibəsində bildirmişdir ki, qarşıdakı dörd il ərzində Belarus iqtisadiyyatı Rusiyanın vergi manevrlərinin nəticəsi olaraq 11 milyard dollara qədər vəsait itirə bilər. Onun sözlərinə görə, neftin qiyməti ilə bağlı vəziyyət yalnız Belarus üçün deyil, Qırğızıstan və Ermənistan üçün də gərginləşmişdir. «Hesablamalarımıza görə, yalnız son üç il ərzində Belarus 3 milyard 600 milyon dollar vəsaitdən məhrum olmuşdur. Bu, çox böyük məbləğdir».

Ölkə Prezidenti Aleksandr Lukaşenko bəyan etmişdir ki, Rusiyanın neft manevrləri ilə bağlı Belarus Respublikasının iqtisadiyyatı ən pis variantda belə, məhv olmayacaq: «Bundan belarusların həyəcanlanması məni narahat edir. Mən açıq demək istəyirəm: həyəcanlanmaq üçün heç bir səbəb yoxdur. Bu bizim - ölkə rəhbərliyinin problemidir, bunu biz həll etməliyik. Prezident əlavə etmişdir ki, heç bir faciə baş verməyəcək. Sadəcə, biz öz xarici siyasətimizi yenidən qurmalı olacağıq.

Bundan əvvəl isə Rusiyanın maliyyə naziri Anton Siluanov açıqlama verərək bildirmişdi ki, Rusiya Belarus Respublikasına vergi manevrləri ilə əlaqədar kompensasiya ödəniləcəyi barədə hər hansı vəd verməmişdir. Belarusun maliyyə nazirinin müavini Dmitri Kiykonun açıqlamasında qeyd edilmişdir ki, Rusiya Federasiyasının neftlə əlaqədar vergi manevrlərinin təsirlərinin minimuma endirilməsi məqsədilə ölkə rəhbərliyi tədbirlər görəcək və məsələnin müsbət həll olunacağına ümid edir: «Hər şey öz əlimizdədir, biz bunu nəzərə almalı və gözlənilən mənfi nəticələrin minimuma endirilməsi üçün tədbirlər görməliyik. Bu tədbirlər büdcəni planlaşdırarkən və ya iqtisadiyyatın inkişafı ilə bağlı planlar qəbul edərkən hansısa yeni şərtlər ola bilər. 2019-cu ildə itkilər 300 milyon dollardan artıq olacaq və artmaqda davam edəcək». Kiyko bildirmişdir ki, Belarusun neft emalı zavodlarının işinin hökumətin yeni tələbləri əsasında mümkün yeni şərtlərə uyğunlaşdırılması məqsədilə neft məhsullarına tətbiq edilən aksiz vergisinin dərəcəsi 25 faizə endirilmişdir. Bundan əlavə, büdcə konservativ ssenari əsasında tərtib edilmişdir, gələn ilin büdcəsində vergi manevrlərindən yaranacaq itkilər nəzərə alınmışdır. Hökumətin həyata keçirdiyi tədbirlərlə yanaşı, Rusiya ilə aparılan danışıqlarda müsbət nəticə əldə ediləcəyi də istisna olunmur. Bu məsələ ilə bağlı iki ölkə prezidentlərinin görüşü planlaşdırılmışdır.

Qeyd edək ki, bu il neftin və neft məhsullarının dünya bazarında qiymətinin kəskin şəkildə artması neft sənayesindəki qiymətqoymanı optimallaşdırmaq üçün Rusiya hökumətini müəyyən addımlar atmağa vadar etmişdir. Dövlət Dumasının bu məsələ ilə bağlı Vergi Məcəlləsində və «Gömrük tarifləri haqqında» Qanunda apardığı dəyişikliklər «vergi manevri» adlandırılır və bir neçə gündən sonra - 2019-cu ilin yanvarından qüvvəyə minəcək. Bu addımın atılmasının iki əsas məqsədi var:

- neft və neft məhsullarının daha əlverişli ixracına nail olmaq;
- daxili bazarda emal üçün neftin qiymətinin artımını təmin etmək.

# Çin ABŞ avtomobillərinə əlavə vergi tətbiqini təxirə salıb

Çin ABŞ-da istehsal edilmiş avtomobillərə və avtomobillər üçün ehtiyat hissələrinə tətbiq edilən 25 faizlik əlavə verginin 3 ay müddətinə təxirə salındığını bildirmişdir. Ölkənin Maliyyə Nazirliyindən verilmiş açıqlamada göstərilmişdir ki, ABŞ Prezidenti Donald Tramp və Çinin dövlət başçısı Şi Cinpinqin keçən ayın sonunda nümayiş etdirdikləri fikir birliyi sayəsində ABŞ istehsalı olan avtomobillərə və ehtiyat hissələrinə 25 faizlik əlavə vergi 2019-cu il yanvarın 1-dən martın 31-dək təxirə salınmışdır. Açıqlamada qeyd edilmişdir: «Vergiləri təxirə salmaq iki ölkə liderlərinin gəldikləri fikir birliyinin təsdiqi baxımından qətiyyətli addımdır. Sənəddə Çin ilə ABŞ arasındakı «ticarət müharibəsi»nə yönəldilmiş müzakirələrin sürətləndiriləcəyinə də ümid bəslənildiyi bildirilmişdir».

Qeyd edək ki, Çin rəhbərliyi avqust ayının əvvəlində ABŞ-ın 200 milyard dollar həcmində Çin mallarına qarşı tətbiq edəcəyi əlavə vergilərə cavab olaraq, ABŞ istehsalı olan avtomobillərə və avtomobillər üçün ehtiyat hissələrinə tətbiq etdiyi gömrük vergisinin dərəcəsini 15 faizdən 40 faizə qaldırmışdı. ABŞ-da istehsal edilmiş avtomobillər Çinin idxal etdiyi avtomobillərin təxminən 25 faizini təşkil edir. Çin hökuməti keçən il ABŞ-dan 250 mindən artıq maşın idxal etmişdi.

ABŞ Prezidenti Donald Tramp və Çin lideri Şi Cinping noyabrın 30-dan dekabrın 1-dək Argentinada keçirilmiş G20 ölkələrinin zirvə toplantısında görüşmüş, 90 gün ərzində yeni gömrük vergisini tətbiq etməmək barədə razılığa gəlmişdi. Çinin Baş nazirinin müavini Liu Hi ilə ABŞ-ın xəzinədarlıq naziri Steven Mnuxin və ticarət təmsilçisi Robert Laythayzer arasında telefon danışığı zamanı ticarət müzakirələrində yeni addımlar atmaq istiqamətində yol xəritəsi və işlərin irəli aparılması mövzuları müzakirə edilmişdi.

krossvord




**Yuxarıdan aşağı:** 1.Sovet kinorejissoru, ssenarist və aktyorun soyadı. «Qafqaz əsiri», «Brilyant əl», «I» əməliyyatı və Şurikin digər macəraları» kimi məşhur filmərin rejissoru olub; 2.Fəlsəfədə hadisənin ayrılmaz, daimi, zəruri əlaməti, xassəsi; 3.Respublikamızda nəşr olunan jurnal; 4.Dağlıq Qarabağda rayon; 5.Baykal gölünün şimal hissəsində ada; 6.Kimyəvi element (metal); 9.Osmanlı imperiyasında sarayda idarə rəisi, bölmə rəhbəri, başçısı. Müasir türk dilində yaşca böyük xanımlara müraciət forması; 13.Avropada çay; 15.Qubadlı rayonunda kənd; 16.Səslənməsinə görə eyni olan, lakin yazılışına görə fərqlənən sözlərə deyilir; 17.Sakit okeanda dəniz; 18.Yunan mifologiyasında kiçik titanlardan biri; 20.Hicri təqviminin 7-ci ayı; 21.Mülk sözünün cəmi, var-dövlət mənası daşıyır. Vergi qoyulur. **Soldan sağa:** 1.Mərkəzi Amerikada dövlət; 5.Cənubi Azərbaycanda nəşr olunan ədəbiyyat dərgisi. Redaktoru doktor Cavad Heyət olmuşdur; 7.Üç tərəfdən su ilə əhatə olunan quru ərazi; 8.Aktinoidlər sinfinə aid kimyəvi element; 10.Hind-Avropa ailəsinə aid dil; 11.Qəzet və jurnallarda, radio və televiziya verilişlərində ayrıca mövzuya həsr olunmuş bölmə və ya guşə; 12.Müəyyən sistem üzrə toplanmış xəritələr toplusu; 14.XX əsrin ən nüfuzlu astronomiya və kosmonavtika üzrə alim. Məşhur kosmik orbital teleskop onun soyadını daşıyır; 19.Fransa imperatoru Napoleon Bonapartın atının adı; 21.Əsasən Cənubi Azərbaycan ərazisində yaşayan, Nadir şahın mənsub olduğu türk tayfası; 22.Sakit Okeanın cənub-qərbində ada arasında yerləşən dəniz; 23.Avstraliyada şəhər; 24.Men adasında çay; 25.Nadir, dadlı yemək.



*«Qafqaz əsiri» filmindən epizod (1966)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İmpost; 2.Litavra; 3.Moizm; 4.Barxan; 5.Romeo; 6.Qandax; 9.Siqi; 13.Opal; 15. Kerroll *(Lüis)*; 16.Abılay *(xan)*; 17.Salair; 18.Ankara; 20.Kater; 21.Tilov. **Soldan sağa:** 1.İslamabad; 5.RPQ; 7.Patriarx; 8. Emin *(Sabitoğlu)*; 10.Sevim; 11.Arizona; 12.Hanoy; 14.Kilkə; 19.Bakkara; 21.Turan; 22.Lita; 23.Kalliopa; 24.Yar; 25.Karavella.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Badminton məşqçiləri üçün beynəlxalq təlim

Dekabrın 24-də Bakıda «Coaching Education Level 1» məşqçilik kurslarına start verilib. Beynəlxalq Badminton Federasiyasının məşqçilərin biliklərinin təkmilləşdirilməsi üzrə təhsil komitəsi məşqçilərə ən yüksək səviyyəyə qədər öyrətmə imkanları yaradır. «Level 1» məşqçi kursları Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun və Beynəlxalq Badminton Federasiyasının dəstəyi, Milli Olimpiya Komitəsinin, Azərbaycan Badminton Federasiyasının təşkilatçılığı ilə keçiriləcək. Kurslarda Bakı ilə yanaşı, Gəncə, Lənkəran və Qubanı təmsil edən məşqçilər də iştirak edirlər.

Dekabrın 28-dək davam edəcək kursların moderatoru Beynəlxalq Badminton Federasiyasının Qərbi Asiya üzrə inkişaf meneceri Murtuza Validarvidir. Kurslarda məşqçilər nəzəri və texniki biliklərə yiyələnəcəklər. Azərbaycan Texniki Universitetinin İdman Sarayında təşkil olunan «Level 1» kurslarında iştirakçılara Milli Olimpiya Komitəsi tərəfindən sertifikat, kursları uğurla başa vuran məşqçilərə isə Beynəlxalq Badminton Federasiyasının «Level 1» məşqçi sertifikatları təqdim olunacaq.

# Bakıda Avroliqaya həsr edilmiş muzeyin açılışı olub

Dekabrın 22-də Bakıda futbol üzrə UEFA Avropa Liqasına həsr olunmuş muzeyin açılış mərasimi keçirilib. Tədbirdə AFFA-nın prezidenti Rövnəq Abdullayev, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, AFFA-nın İcraiyyə və Məşqçilər komitələrinin üzvləri iştirak ediblər. Tədbir iştirakçıları muzeydə nümayiş etdirilən eksponatlarla tanış olublar. UEFA tərəfindən təqdim olunmuş eksponatlar böyük maraqla qarşılanıb.



UEFA Avropa Liqasının gələn il mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək final oyununa hazırlıq kampaniyası çərçivəsində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında təşkil olunmuş muzey yanvarın 7-dək fəaliyyət göstərəcək. Muzey üç hissədən ibarətdir. Sərgidə iştirak etmək istəyən qonaqlar girişdə yerləşdirilən məlumat zonasında qeydiyyatdan keçərək ətraflı informasiya əldə edə bilərlər. Muzey zonasında Avropa Liqası tarixini əks etdirən eksponatlar - 2008-2018-ci illərdə keçirilmiş final oyunlarında iştirak etmiş komandaların futbolçularının imzalı formaları, Avropa Liqasının rəsmi topu, eləcə də bu turnirin final oyunlarında istifadə edilmiş imzalı oyun topları sərgilənir. Bundan əlavə, muzeyin daxilində quraşdırılmış monitorlarda Avropa Liqasının unudulmaz anları, final qarşılaşmalarında vurulmuş qollar və müxtəlif maraqlı məqamlar nümayiş etdirilir.

Oyun və istirahət zonasında isə ziyarətçilərə rəngarəng və əyləncəli proqramlar, həmçinin futbolla bağlı bilik və bacarıqlarını nümayiş etdirə biləcəkləri maraqlı yarışlarda iştirak imkanı təqdim olunur. Bundan əlavə, muzeydə yerli və əcnəbi futbol ulduzları ilə imza günləri də təşkil olunacaq. İmza günlərində ziyarətçilər futbolçularla yaxından tanış ola, onlardan imza ala, eləcə də xatirə şəkilləri çəkdirə biləcəklər.

# «Prezident Kuboku»nu «Sərhədçi» qazandı



Binə Atçılıq Mərkəzinin qapalı manejində keçirilən çövkən milli atüstü oyunu üzrə «Prezident Kuboku» turnirinə dekabrın 23-də yekun vurulub. Turnirin sonuncu günündə üçüncü yer uğrunda görüş və final qarşılaşması oynanılıb. Yarış «Sərhədçi» komandasının qələbəsi ilə başa çatıb.

Final qarşılaşmasında «Sərhədçi» və «Omar» komandaları qarşılaşıblar. Gərgin idman mübarizəsi şəraitində keçən ilk hissədə hesab açılmayıb. Fasilədən sonra hücumların kəsərini artıran «Sərhədçi» qarşılaşmanın bitməsinə 3 dəqiqə qalmış qələbə topunu vurublar. Tərlan Qurbanəliyev komandasının vacib qoluna imza atıb. Beləliklə, «Sərhədçi» komandası 1:0 hesabı ilə qalib gələrək ardıcıl ikinci il çempion adını qazanıb. Bürünc medallar uğrunda görüşdə isə «Polad» və «Buta Golden» komandaları mübarizə aparıblar. Oyunda 5:1 hesabı ilə qalib gələn «Polad» komandası bürünc medallara layiq görülüb. Sonra qaliblərə mükafatlar təqdim olunub. Turnirin ən çox qol vuran oyunçusu adına «Sərhədçi» komandasının kapitanı Elçin Camallı, ən yaxşı oyunçusu adına isə Tərlan Qurbanəliyev layiq görülüblər.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev fəxri kürsüdə yer alan komandaların üzvlərinə kubok və medalları təqdim edib.

Oyunlar arasındakı qısa fasilədə dekabrın 19-da Londonda start götürəcək Olimpiya Beynəlxalq Atçılıq Şousu çərçivəsində «Hampton Court» Kral sarayının ərazisindəki atçılıq mərkəzində «Alxan» ləqəbli Qarabağ atının tuncdan hazırlanmış heykəlinin açılışına və ənənəvi olaraq hər il təşkil edilən, 111 illik tarixə malik şouda Azərbaycan təmsilçilərinin valehedici çıxışına dair kadrlar nümayiş olunub.

# Ən çox tamaşaçı artımı Azərbaycanda olub

Formula 1 rəhbərliyi ötən mövsümdə yarışların izlənməsi ilə bağlı məlumatları dərc edib. Bildirilib ki, 2018-ci ildə dünya çempionatına gələnlərin sayı 2017-ci illə müqayisədə 2,7 faiz çox olub. Ən populyar mərhələ Böyük Britaniya Qran-Prisi olub. Bu yarışları üç gün ərzində 340 min tamaşaçı izləyib. İkinci yeri Meksika Qran-Prisi (335 min tamaşaçı), üçüncü yeri isə Avstraliyanın Melburn şəhərində ilk dəfə keçirilən Qran-Pri (295 min tamaşaçı) tutublar. Formula 1 mərhələlərinin orta izlənmə göstəricisi 194.919 nəfər olub. Tamaşaçıların sayında ən çox artım Azərbaycan, Avstriya, Yaponiya və Kanadada olub. Ümumilikdə isə Formula 1 yarışlarının 21 mərhələsi 4.093.305 nəfərlik tamaşaçı auditoriyası toplayıb.



## mozaika

maraqlı

# 2018-ci ilin qeyri-adiləri...

CNN telekanalında 2018-ci ildə hərraclara çıxarılan və inanılmaz qiymətlərə satılan qeyri-adi əşyaların adları açıqlanıb

### Nəhəng mirvari

«Yatmış şir» adlanan şirin su mirvarisi Niderlandda keçirilən Venduhius hərracında 320 min avroya satılıb. Uzunluğu 2,8 inça (1 inç=2,5 sm) və çəkisi 4 unsiya (1 insiya=31,1 qram) olan bu mirvari Avropaya Çindən gətirilib və 1700 il əvvəl cilalanıb.

### Ay süxurunun hissəciyi

Sovet «Luna-16» missiyasının Ayın səthindən 1970-ci ildə gətirdiyi süxurun hissəciyi Nyu-Yorkdakı «Sotbi» hərracında 855 min ABŞ dollarına satılıb. Bu əşyanı sovet kosmonavtikasının banisi Sergey Korolyovun həyat yoldaşı Nina Korolyova təqdim edib. Qaya süxurunun hissəciyi görkəmli konstruktora Sovet İttifaqında kosmosun tədqiqi sahəsindəki xidmətlərinə görə hədiyyə edilib.



### Stiven Hokinqin əlil arabası

Dahi alim Stiven Hokinqin adını daşıyan fond tərəfindən təqdim olunan əlil arabası Kristi onlayn hərracında 393 min dollara satılıb. Bu araba-dan 1960-cı ildən 1990-cı ilin əvvəlinədək istifadə olunub. Hərracın rəhbəri Tomas Venniqin sözlərinə görə, 1977-ci ildə Hokinqin vəliəhd şahzadə Çarlzla görüşü zamanı yerdəki oyuncaqların üzərindən keçdiyi bu hərəkət vasitəsi dünyada ən çox sürülmüş əlil arabasıdır.

### Tamamilə brilyantdan olan üzük

Bu il hərraca çıxarılmış ən qəribə əşyalardan biri də tamamilə brilyantdan düzəldilmiş üzük olub. «Apple» şirkətinin dizayn şefi Coni İv və dizayner Mark Nyuson tərəfindən hazırlanmış bu zərgərlik məmulatı «Sotbi» hərracında 256 min dollara satılıb. Üzüyün ABŞ-ın Mayami şəhərindən gətirildiyi və əldə olunan vəsaitin QİÇS xəstələri üçün xeyriyyə məqsədinə xərcləndiyi bildirilir.

### Üç min il yaşı olan Assuriya heykəli

Kristi hərracında rekord qiymətə - 31 milyon dollara satılan üç min il yaşı olan Assuriya heykəli ilk təklifdə 10 milyon dollar məbləğində qiymətləndirilib. İraq ərazisindən gətirilən və Assuriya çarı II Aşurnasirpalın dövrünə aid olan bu nadir sənət əsərini geri qaytarmaq üçün İraqın mədəniyyət naziri beynəlxalq təşkilatlar qarşısında məsələ də qaldırıb. Lakin «Sotbi» hərracından bildiriblər ki, bundan əvvəl də şəxsi kolleksiyaya məxsus olan bu heykəllə bağlı Bağdadın iddiaları qəbuledilməzdir.

### 5,655 karatlıq zümrüd

Oktyabrda Zambiyadan gətirilən 5,655 karatlıq zümrüd kristalı noyabrda Sinqapurda keçirilən hərracda 28,4 milyon dollara satılıb. Afrika mədənlərində tapılan bu kristalın çəkisi 11 kiloqramdır. Bundan əvvəl də Zambiyada «Fil» adlanan 6,225 karatlıq zümrüd kristalı aşkar olunmuşdu.

Bunlardan başqa, 2018-ci ildə dünyanın müxtəlif hərraclarında uşaqlar üçün əsərin qəhrəmanı Vinni-Puxun orijinal xəritəsi (600 min dollar), 150 milyon il yaşı olan dinozavr skeleti (2,36 milyon dollar), Eyfel qülləsinin pillələri (191 min dollar), Böyük Britaniya kraliçasının «Rolls-Royce» avtomobili (1 milyon dollar) kimi qeyri-adi əşyalara da böyük məbləğlər ödənilib.

mədəniyyət

# «Dmitri Şostakoviç - Qara Qarayev. Tarixin səhifələri»



Vyana Musiqi və Təsviri İncəsənət Universitetində Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, dünya şöhrətli bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib. «Culture Meeting Point» mədəniyyət ocağının təşkil etdiyi tədbirdə qurumun rəhbəri, incəsənət üzrə fəlsəfə doktoru, musiqişünas alim Fərəh Tahirovanın «Dmitri Şostakoviç-Qara Qarayev. Tarixin səhifələri» adlı məruzəsi dinlənilib. «Dmitri Şostakoviç və Azərbaycan musiqi mədəniyyəti Şərqlə Qərbin mədəni dixotomiyasının inikası kimi» layihəsi çərçivəsində reallaşan tədbirdə F.Tahirova XX əsrin dünya musiqisinin iki görkəmli nümayəndəsi - Qara Qarayev və Dmitri Şostakoviç arasındakı yaradıcı əlaqələri tarixi faktların dili ilə təqdim edib. Məruzəçi çıxışında özünün müəllifi olduğu «Dmitri Şostakoviç və Azərbaycan musiqi mədəniyyəti» adlı kitabdan da istinadlar edib.

Vyana musiqisevərlərinə ilk dəfə təqdim olunan tarixi faktlar, arxiv sənədləri və fotolar əsasında Dmitri Şostakoviçin Azərbaycanla əlaqələrinin ümumi mənzərəsi canlandırılıb, xüsusilə də onun azərbaycanlı tələbələri Qara Qarayev, Cövdət Hacıyevlə münasibətlərindən bəhs edilib. Tədbirdə, həmçinin, Dmitri Şostakoviçin Azərbaycan radiosundakı çıxışı səsləndirilib və onun Azərbaycan musiqi mədəniyyətində Üzeyir Hacıbəyli, Qara Qarayev, Cövdət Hacıyev, Bülbül, Fikrət Əmirov, Niyazi və digərlərinin oynadığı rol barədə fikirləri təqdim olunub.

Sonra dahi bəstəkar Qara Qarayevin qızı, bəstəkar Züleyxa Qarayevanın atası haqqında xatirələrinin yer aldığı videoçarx nümayiş etdirilib. F.Tahirova qeyd edib ki, bu məruzə «Dmitri Şostakoviç və Azərbaycan musiqi mədəniyyəti Şərqlə Qərbin mədəni dixotomiyasının inikası kimi» layihəsinin ikinci və yekun hissəsidir. Layihənin ilk hissəsi ötən ilin sentyabr ayında görkəmli Azərbaycan bəstəkarı Cövdət Hacıyevin 100 illik yubileyinə həsr olunmuşdu. Bildirilib ki, növbəti layihə Dmitri Şostakoviçin Türkiyə ilə əlaqələrinə və Mustafa Kamal Atatürkün dəvəti ilə onun qardaş ölkəyə səfərinə həsr ediləcək.

### Müdriklər deyib ki...



*«Həqiqəti axtarmaq onu əldə etməkdən daha dəyərlidir».*

*Albert Eynşteyn (1879-1955)*

# Yolayrıcında...

**Əziz oxucular!**

Bu, «Vergilər» qəzetinin çap variantının sizinlə yolayrıcında görüşüdür. Lakin heç də yolun və sözün sonu deyil. Sizinlə yol yoldaşlığımız, ünsiyyətimiz bundan sonra da davam edəcək. Çünki bu ünsiyyətin başlıca missiyası biznes adamının biznes maraqlarına, vergi orqanı işçilərinin peşəkar fəaliyyətinə, adi oxucunun informasiya almaq istəklərinə, ümumiyyətlə, daim dəyişməkdə olan, dinamik həyat yaşayan cəmiyyətimizin mənafeyinə xidmət etməkdir. İndi biz yeni bir yolun başlanğıcındayıq: 2019-cu ildə «vergilər.az» oxucuları görüşünə onlayn qəzet formasında gələcək...

Hər yolayrıcında irəliyə baxmaq, gələcəyi göz önünə gətirmək istəyi olduğu kimi, keçmişə baxmaq, görülən işləri təhlil etmək, ən azından özünə hesabat vermək istəyi də yaranır.

Dayanıb keçmişi nəzərdən keçirəndə belə hesab edirik ki, «Vergilər»in çap versiyası dövlətimiz və xalqımız üçün şərəfli bir iş yerinə yetirib və yetirir. Əsrin başlanğıcında - 2000-ci ildə təsis edilmiş qəzet Azərbaycan dövlətinin müstəqil vergi sisteminin formalaşmasını müşayiət edərək uzun bir yol keçib. Ölkəmizin vergi siyasətində baş verən bütün yeniliklər, vergi qanunvericiliyi ilə bağlı şərhlər bu qəzetin səhifələrində oxuculara «birinci əldən» çatdırılıb. Qəzetin hər bir buraxılışı hazırlanarkən Azərbaycan biznes ictimaiyyətini maraqlandıran, vergi orqanları ilə vergi ödəyiciləri arasında bəzən mübahisə yaradan, bəzən müzakirəyə yol açan məsələlər nəzərə alınıb və qəzet öz oxucuları ilə münasibətlərini canlı dialoq formasında qurmağa çalışıb. Biz onlayn qəzetin nəşrini də ən yaxşı təcrübələrimizə əsaslanaraq bu platforma üzərində davam etdirəcəyik.

«Vergilər» qəzetinin ən mühüm keyfiyyətlərindən biri də Azərbaycan jurnalistikasının sağlam ənənələrindən, ədəbi dilimizin publisistik imkanlarından maksimum düzgün istifadə etməyə çalışmasıdır. Biznes terminologiyasının, həyatımızın bir parçasına çevrilmiş texnoloji yeniliklərin, eləcə də qanunçuluğun son dərəcə dinamik dəyişmələr keçirdiyi bir zamanda, Azərbaycan kütləvi infomasiya vasitələrində peşəkarlıqla bağlı çoxlu problemlərin mühşahidə olunduğu indiki şəraitdə «Vergilər» qəzeti dilimizin saflığının qorunmasını əsas məsuliyyətlərindən biri kimi qəbul edərək, bu sahədə jurnalistikamızın əldə etdiyi ən gözəl ənənələri qorumağa çalışır.

«Vergilər» qəzetinin çap variantının dizaynı da yəqin ki, mətbuat tariximizin yaddaşında fərqli bir hadisə kimi qalacaq. Biz indi yolayrıcındayıq. Qəzetimizin çap variantı ilə sizinlə vidalaşırıq. Ancaq biz sizdən ayrılmırıq. İlin əvvəlindən görüşünüzə «vergilər.az» onlayn qəzeti ilə gələcəyik. Qarşıda bizi daha operativ, daha hərəkətli ünsiyyət gözləyir...